RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 204 (8797) CÜMƏ, 24 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qalib Azərbaycan xalqının müzəffər Ali Baş Komandanı ali tribunadan bütün dünyaya bir daha bəyan etdi:

# “Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik”

**BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri davam edir.**

**AZƏRTAC xəbər verir ki, sentyabrın 23-də ümumi müzakirələr zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub.**



## Prezident İlham Əliyevin çıxışı

- Cənab Sədr.

Cənab Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

Mən cənab Abdulla Şahidi BMT Baş Assambleyasının 76-cı sessiyasının sədri seçilməsi münasibətilə təbrik edir, ona vəzifəsinin icrasında uğurlar diləyirəm. Həmçinin qardaş Türkiyədən olan cənab Volkan Bozkıra BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri qismində liderliyinə görə dərin minnətdarlığımı bildirirəm.

COVID-19 pandemiyası bütün dünya üçün ciddi çətinliklər doğurmaqda davam edir. Hökumətimiz ilk günlərdən əhalinin qorunması və pandemiyanın mənfi təsirinin minimuma endirilməsi məqsədilə mühüm və praktiki tədbirlər həyata keçirir.

Azərbaycan cari ilin yanvar ayının ortalarından peyvəndləmə kampaniyasına başlayıb. Hər 100 nəfərə istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən artıqdır.

COVID-19-un təsirinə məruz qalmış əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün təqribən 2.7 milyard ABŞ dolları həcmində sosial-iqtisadi paket təqdim edilib.

Düzgün planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində pandemiya ilə bağlı vəziyyət nəzarət altında saxlanılıb və ölkəmizdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldılıb. Pandemiya ilə mübarizə sahəsində Azərbaycanın müfəssəl səyləri beynəlxalq səviyyədə qəbul edilib. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırıb.

Azərbaycan bütün bu fəaliyyəti özünün maliyyə resursları hesabına həyata keçirib. Biz, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı etmişik. Bundan əlavə, dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərmişik.

Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan bir sıra qlobal təşəbbüslər irəli sürüb. 2020-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil etmişdir. Zirvə toplantısı zamanı mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutdu. Təşəbbüslərimizi dəstəkləyən BMT-nin Baş katibi cənab Antonio Quterreşə və bütün dövlətlərə minnətdarlığımı bildirirəm.

Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı öz narazılığını ifadə edib. Biz davam edən “peyvənd millətçiliyi” və peyvəndlərə çıxışla əlaqədar inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında dərinləşən qeyri-bərabərliklə bağlı narahatlığımızı bir daha vurğulayırıq. Belə hərəkətlər inkişaf etməkdə olan ölkələrin öz əhalisini qorumasını əngəlləyir. Beynəlxalq hesabatlara əsasən, bugünə qədər dünyada mövcud olan peyvənd dozalarının 75 faizindən çoxu 10 zəngin ölkə tərəfindən alınıb, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır.

Bu məsələyə beynəlxalq diqqətin cəlb edilməsi məqsədilə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib.

Cari sessiya çərçivəsində Azərbaycan BMT Baş Assambleyasında eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır.

Hesab edirik ki, COVID-19-dan sonra daha yaxşı bərpa üçün güclü, əlaqələndirilmiş və məqsədyönlü qlobal addımlara ehtiyac var. Bu mənada biz pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlayacaq BMT-nin COVID-19-dan sonra qlobal bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif edirik.

Bu il Qoşulmama Hərəkatının yaradılmasının 60 illiyidir. Qoşulmama Hərəkatının 120 üzvünün yekdil qərarı ilə Azərbaycan 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş dövlət və hökumət başçılarının 18-ci Zirvə toplantısında üç il ərzində Hərəkata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan beynəlxalq ədalətin və beynəlxalq hüquq normalarının təmin edilməsini, habelə Hərəkata üzv dövlətlərin legitim maraqlarını güclü şəkildə müdafiə edir. Bu il Hərəkata üzv dövlətlər Azərbaycanın sədrliyini daha bir il - 2023-cü ilin sonuna qədər uzadılmasına dair yekdil qərar qəbul ediblər. Bu, bütün dünya üçün çətin bir dövrdə Azərbaycanın Hərəkata uğurlu və səmərəli şəkildə sədrlik etməsinin təsdiqi və yüksək qiymətləndirilməsinin əlamətidir.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlətdir.

Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72.4 xal toplayan Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutmuşdur. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi vurğulanır.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional əlaqələndirmə layihələrinin icrasında fəal iştirak edir və bununla da Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Biz Bakı Beynəlxalq Ticarət Limanını istifadəyə vermişik ki, onun yükaşırma qabiliyyəti 15 milyon tona bərabərdir və ehtiyacdan asılı olaraq bu həcm 25 milyon tona qədər artırıla bilər.

Azərbaycan Paris İqlim Sazişini ratifikasiya etmiş, baza ili - 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Bununla yanaşı, biz Paris Sazişi çərçivəsində 2050-ci il üçün şərti hədəflərin müəyyən edilməsi imkanlarını araşdırırıq.

Hazırda ölkənin ümumi enerji istehsalında bərpa olunan enerjinin payı 17 faiz təşkil edir. Hədəfimiz 2030-cu ilə qədər bu rəqəmi 30 faizə çatdırmaqdır. Növbəti 3-4 il ərzində ümumi gücü 700 meqavat təşkil edəcək 3 külək və günəş elektrik stansiyalarının inşasına sərmayə qoyuluşuna dair üç böyük beynəlxalq enerji şirkəti ilə müqavilələr imzalanıb. Layihələrdən biri 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur bölgəsində həyata keçiriləcək. Bu 240 meqavat gücündə günəş elektrik stansiyası Azərbaycanın azad olunmuş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacaqdır. Mən digər beynəlxalq enerji şirkətlərini də Azərbaycanın azad olunmuş ərazilərində yaşıl enerji layihələrinə sərmayə qoymağa dəvət edirəm.

Mən azad edilmiş Qarabağı və Şərqi Zəngəzuru bu yaxınlarda Yaşıl Enerji Zonası elan etmişəm. Azərbaycanın azad olunmuş ərazilərinin 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi olmaqla təsdiq edilmiş bərpa olunan enerji potensialı var.

Xam neft və qaz ixracı ilə yanaşı, Azərbaycan son illərdə elektrik enerjisinin ixracatçısına çevrilib. Bu gün biz dörd qonşu ölkəyə elektrik enerjisi ixrac edirik. Eyni zamanda, əhalimizin artması və iqtisadi inkişaf ilə əlaqədar daxili enerji istehlakı da artmaqdadır. Cari ilin 8 ayı ərzində Azərbaycanın qeyri-neft sənayesi 18.4 faiz artmışdır.

Xanımlar və cənablar.

Azərbaycan xalqı öz kökünə, tarixinə, dilinə və ənənələrinə olduqca bağlı bir xalqdır. Mən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə bu ili “Nizami Gəncəvi ili” elan etmişəm.

*Ardı 2-ci səh.*

**Mövzuya keçməzdən öncə onu qeyd edək ki, dünyada 100-ə yaxın beynəlxalq reytinq agentliyi mövcuddur. Onların içərisində ən nüfuzluları “böyük üçlük” sayılan Fitch Ratings, Moody's və Standard & Poor's agentlikləridir.**

## Azərbaycan mövqeyini yaxşılaşdırmaqda davam edir

Bu qurumların reytinq qiymətlərini hesablamaq üsulları bir-birindən fərqlənsə də, ümumi oxşar cəhətlərə malikdirlər. Bir qayda olaraq qiymətləndirmələrdə ən yüksək reytinq - AAA, daha sonra azalan sırada AA, A, VVV və s. gəlir. Ən aşağı kredit reytinqini adətən D hərfi (defolt - dövlətin və ya şirkətin ödəmə qabiliyyətinin olmamasını göstərir) ilə işarə edirlər.

Nüfuzlu reytinq agentliklərinin Azərbaycanla bağlı qiymətləndirilmələri bir qayda olaraq stabil müsbət dinamikası ilə diqqət çəkir. Məsələn, bu ilin əvvəlində “Standard & Poor's” agentliyi Azərbaycanın reytinqləri üzrə proqnozunu “mənfi”dən “stabil”ə yüksəltmişdir.

*Ardı 7-ci səh.*

## Güc simvolu



Strateji əhəmiyyətə malik hərbi təlimlər Müzəffər Azərbaycan Ordusunun döyüş qabiliyyətini daha da artırır

*Bax: səh. 7*

## Yoluxma və ölüm sayı azalsa da, statistik göstərici qənaətbəxş deyil

Yeni növ koronavirusun hələlik sonu görünmür. Yenə də dünyada COVID-19-la bağlı yayılmış statistika vəziyyətin ürəkaçan olmadığını söyləməyə əsas verir. Belə ki, bu təhlükəli virusa yoluxanların ümumi sayı 230 milyonu ötüb. Koronavirus səbəbindən həyatını itirənlərin sayı isə 4 milyon 700 mindən çoxdur.

Qlobal bəla hər gün dünyanın müxtəlif ölkələrində fəsadlar törətməkdə davam edir. Qeyd edək ki, koronavirusa yoluxma sayına görə hələ də birinci yerdə ABŞ dayanır.

Sərhəd qonşularımız Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistanda da koronavirus hər gün neçə-neçə insanın sağlamlığını təhdid edir, həyatına son qoyur.

### Ölkəmizdə yeni tədris ili başladı...

Azərbaycanda son günlər COVID-19-a yoluxanların və bu səbəbdən vəfat edənlərin saylarında azalma müşahidə olunur. Buna baxmayaraq, statistik göstəricilər hələ də vəziyyətin ciddi olduğunu deməyə əsas verir. Digər tərəfdən artıq məlumdur ki, bu gözəgörünməz düşmənə arxayın olmaq ağır nəticələnə bilər. Odur ki, arxayınlaşmaq, ehtiyatı əldən vermək olmaz. Sadə qaydaları unutmamalıyıq. Yəni məsafə saxlamalı, maska taxmalı, gigiyenik tələblərə riayət etməliyik və peyvənd olunmalıyıq. Hələlik bütün dünyada koronavirusla mübarizənin yolu bunlardır.

*Ardı 8-ci səh.*

# Qalib Azərbaycan xalqının müzəffər Ali Baş Komandanı ali tribunadan bütün dünyaya bir daha bəyan etdi:

# “Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik”

Əvvəli 1-ci səh.

XII əsrdə Nizami Gəncəvinin öz əsərlərində təbliğ etdiyi sülh, ədalət, humanizm, azadlıq və bərabərlik kimi ideal və dəyərlər BMT-nin təşviq və müdafiə etdiyi prinsiplərlə üst-üstə düşür.

Biz Azərbaycanda multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyirik. Azərbaycan dünyada tolerantlığın, müxtəlif dini və etnik qrupların nümayəndələrinin dinc birgəyaşayışının nümunəsi sayılır. 2008-ci ildə Azərbaycanın təşəbbüsü ilə başlanılmış və müsəlman dünyası ilə Avropa arasında dialoq və əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyan “Bakı Prosesi” BMT tərəfindən güclü şəkildə dəstəklənir. BMT Baş Assambleyasının qətnaməsində Azərbaycanda müntəzəm olaraq təşkil olunan Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumu “mədəniyyətlərarası dialoqun təşviqi üçün mühüm qlobal platforma” olaraq tanınır.

Xanımlar və cənablar.

Ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışım zamanı mən sizin diqqətinizi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinə və Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltdim. Bu gün qürur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu.

Təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək yüzlərlə dinc insanı, o cümlədən 106 qadını və 63 uşağı qətlə yetirmişdir. 1275 azərbaycanlı əsir götürülmüşdür, onların 150-si hələ də itkin hesab olunur. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin Ermənistan bu və BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bənzər qərarlara məhəl qoymamışdır.

BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, bizə gəldikdə 27 il icra olunmamış qaldı. Bu isə ikili standartların bariz nümunəsidir. Selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var.

ATƏT-in Minsk qrupu Ermənistan və Azərbaycan arasında münaqişənin həllinə nail olmaq məqsədilə 1992-ci ildə təsis edilmişdir. ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanı Azərbaycana qarşı hərbi təcavüzə son qoymağa məcbur etmək üçün qətiyyətli addımlar atsaydılar, onda üzərlərinə düşən vəzifələrin icrasına nail ola bilərdilər. Münaqişə dövründə Ermənistan öz yanaşması və hərəkətləri ilə nümayiş etdirirdi ki, onun yeganə məqsədi status-kvonu saxlamaq və işğalı möhkəmləndirməkdir. Mən dəfələrlə Ermənistana qarşı sanksiyaların tətbiq edilməsinin vacibliyi məsələsini qaldırmışdım. Təəssüflər olsun ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin etmək üçün Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilmədi.

2018-ci ildə Ermənistanda hərbi cinayətkarlar Köçəryan-Sarkisyan rejimi devrildi. Bizim Ermənistanın yeni hökumətinin ciddi şəkildə danışıqlarda iştirak edəcəyi ilə bağlı müəyyən ümidlərimiz var idi. Biz Ermənistandan gələn istənilən müsbət siqnala cavab verməyə hazır idik. 2018-2019-cu illər keçmiş təmas xəttində ən sakit dövrlərdən biri idi. Lakin Azərbaycanın müsbət addımlarına baxmayaraq, Ermənistanda rejimin dəyişməsi real dəyişikliklərlə nəticələnmədi. Ermənistanın yeni hökuməti də Azərbaycanla dinc qonşuluq əvəzinə, işğalın davam etdirilməsi yolunu seçdi.

Münaqişənin son iki ili ərzində Ermənistan qəsdən danışıqlar prosesini məhv etdi. Ermənistan hökuməti “Qarabağ Ermənistandır və nöqtə” və “bir qarış belə işğal olunmuş torpaq qaytarılmayacaq” kimi bir sıra təxribatçı bəyanat və hərəkətlərə yol verdi. Ermənistanın ovaxtkı müdafiə naziri açıq şəkildə Azərbaycanı yeni təcavüz və yeni işğal ilə hədələdi. Ermənistan qəbuledilməz və əsassız “yeddi şərt” irəli sürərək danışıqlar formatının dəyişdirilməsi, danışıqlara sıfırdan başlanılması və Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə yaradılmış qondarma rejimin danışıqlar prosesinə cəlb edilməsini tələb etdi. Danışıqların formatının və mahiyyətinin dəyişdirilməsi cəhdi Ermənistanın məsuliyyətsiz və təhlükəli hərəkətləri səbəbindən fəaliyyəti iflic olmuş ATƏT-in Minsk qrupunun həmsədrləri üçün xoşagəlməz sürpriz oldu.

Bundan əlavə, Cenevrə konvensiyaları da daxil olmaqla, beynəlxalq hüququn kobud şəkildə pozulması ilə Ermənistan açıq şəkildə qanunsuz məskunlaşdırma siyasətini həyata keçirərək, əsasən Yaxın Şərqdən olan erməni əsilli şəxsləri Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirirdi. İllər ərzində hökm sürən cəzasızlıqdan ruhlanan Ermənistan təcavüzün nəticələrini möhkəmləndirmək və qanunsuz məskunlaşdırmanı sürətləndirmək üçün Ermənistandan işğal olunmuş ərazilərimizə yeni yolun inşa ediləcəyini bəyan edirdi.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədi boyu hərbi təxribat törətdi. Azərbaycanın Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində 13 hərbçi və mülki vətəndaş həlak oldu.

Daha sonra avqust ayında Ermənistanın diversiya qrupu keçmiş təmas xəttini keçərək Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı terror aktları törətməyə cəhd etdi, lakin bunun qarşısı uğurla alındı.

Ötən il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsindəki çıxışımda mən xəbərdarlıq etmişdim ki, “Ermənistan rəhbərliyinin düşmən, Azərbaycanofob bəyanatları və təxribatları Ermənistanın Azərbaycana qarşı yeni hərbi təcavüzə hazırlaşdığını nümayiş etdirir”.

Bundan üç gün sonra - sentyabrın 27-də Ermənistan Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərinə qarşı irimiqyaslı hücuma başladı. Buna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı.

44 gün ərzində Ermənistan silahlı qüvvələri cəbhəboyu ərazilərdə yerləşən rayonlarımızı və şəhərlərimizi - Ağdam, Ağcabədi, Beyləqan, Daşkəsən, Füzuli, Goranboy, Tərtəri intensiv şəkildə atəşə tuturdu. Ermənistan, həmçinin cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən, Xızı və digər şəhərləri də atəşə tuturdu. Raketlərdən biri Azərbaycanın hava hücumundan müdafiə qoşunları tərəfindən Bakının yaxınlığında yerləşən Xızı üzərində zərərsizləşdirilmişdir. Bu isə onu göstərir ki, paytaxt Bakı da Ermənistanın raket hücumlarının hədəfi idi. Ermənistan “Skad” və “İsgəndər-M” tipli ballistik raketlərdən, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli sursatlardan istifadə edirdi. Ermənistanın bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilib, 450 nəfərdən çox insan yaralanıb. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər dağıdılıb və ya onlara ciddi zərər dəyib.

Hərbçilər və mülki əhali arasında fərq qoyulmasına dair beynəlxalq humanitar hüququn fundamental prinsiplərinə riayət edən Azərbaycan Ermənistan tərəfindən dinc sakinlərin hədəfə alınması kimi qəddar hərbi cinayətlərə oxşar formada cavab vermədi.

Ermənistan, eyni zamanda, xaricdən muzdlu və əcnəbi döyüşçülər cəlb edərək onları Azərbaycana qarşı istifadə edirdi.

44 günlük müharibə ərzində Azərbaycan işğal olunmuş ərazilərinin böyük bir hissəsini, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini azad etdi. Ümumilikdə döyüş meydanında 300-dən çox şəhər və kənd azad edilmişdir. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən - Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bugünə qədər dünyada ilk belə haldır.

Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə biz Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratmışıq. Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram.

Azərbaycanın keçmiş işğal olunmuş ərazilərində Ermənistan tərəfindən illər ərzində çoxqatlı müdafiə xətlərinin və uzun səngərlər, tunel və bunkerlərdən ibarət istehkamların qurulması sübut edir ki, Ermənistan heç bir vəchlə bu əraziləri qaytarmaq niyyətində deyildi.

Təqribən 30 illik işğal ərzində Ermənistan qəsdən bütün şəhər və kəndləri dağıtmış, bütün mədəni və dini abidələri viran qoyaraq, talayaraq, onları əsl urbisid - şəhərlərə qarşı genosid və kultursid - mədəniyyətə qarşı genosid nümunələrinə çevirmişdir. Yəqin ki, İkinci Dünya müharibəsindən bəri şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Ermənistan bu ərazilərdə əsrlərboyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, onu “Qafqazın Hirosiması” adlandırırlar. Füzuli şəhərinin işğaldan azad olunmasından sonra ordumuz orada bir dənə də salamat bina tapa bilmirdi ki, onun üzərində bayrağımızı dalğalandırsın.

Ermənistanın işğalı altında olmuş ərazilərdə 67 məsciddən 65-i yerləyeksan edilib, qalan ikisi isə ciddi zərər görüb və təhqir edilib, onlardan donuz və inək tövləsi kimi istifadə edilib. Bu isə bütün dünya müsəlmanlarına qarşı hörmətsizlikdir. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb.

Azad olunmuş ərazilərə səfərlər zamanı xarici diplomatlar, beynəlxalq təşkilatların nümayəndələri və xarici jurnalistlər Ermənistan tərəfindən törədilən vəhşiliyin şahidi olmuşlar. Şəhər və kəndlərin, o cümlədən Azərbaycan xalqına məxsus mədəni və dini irsin tamamilə dağıdılması beynəlxalq media və müstəqil ekspertlər tərəfindən geniş şəkildə sənədləşdirilib və işıqlandırılıb.

Azərbaycan tərəfindən hər bir ölkənin BMT-dəki nümayəndəliyinə şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab təqdim edilib. Kitabda Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv olunması öz əksini tapıb.

Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Meşələrimizin 60 min hektarı məhv edilib, kəsilib və oğurlanıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərlənib.

Ermənistan keçmiş işğal olunmuş ərazilərdə bizim su ehtiyatlarımızdan süni ekoloji fəlakət yaratmaq üçün istifadə edib. 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası “Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir” adlı qətnamə qəbul edərək, Ermənistan hökumətindən su ehtiyatlarından siyasi təsir və ya təzyiq aləti kimi istifadəsinə son qoyulmasını tələb etmişdir.

Ermənistan həmin qətnaməyə qətiyyən məhəl qoymadı və Sərsəng su anbarını humanitar və ekoloji terrorizm aləti kimi istifadə etməyə davam etdi. Ermənistan qəsdən qış aylarında su anbarını açaraq ətraf ərazilərdə daşqın törədir, yay aylarında isə suyu kəsərək keçmiş cəbhəyanı bölgədə yaşayan insanları və təsərrüfatları sudan məhrum edirdi.

Ermənistan transsərhəd Oxçuçay çayını kəskin şəkildə çirkləndirir. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi ərazinin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyur. Təəssüflər olsun ki, bəzi xarici şirkətlər də bu ekoloji cinayətdə iştirak edir.

Ermənistan keçmişdə işğal altında olan ərazilərimizdə qanunsuz olaraq təbii sərvətlərimizi, o cümlədən qızıl və digər qiymətli metal və mineralları istismar etmiş, onları xarici bazarlara ixrac etmişdir. Tutarlı faktlara əsaslanaraq biz keçmişdə işğal altında olan ərazilərdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarı və digər qanunsuz fəaliyyətlə məşğul olan müxtəlif ölkələrdən olan xarici şirkətləri müəyyən etmişik. Biz artıq həmin şirkətlərə qarşı hüquqi tədbirlərə başlamışıq. Onlar keçmişdə işğal altında olan ərazilərdə təbii sərvətlərimizi qanunsuz istismar etdiklərinə görə məsuliyyətə cəlb ediləcəklər.

Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Ermənistan onların taleyi ilə bağlı bizə məlumat verməlidir. Bizdə olan etibarlı məlumatlara əsasən, onların, demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib və beynəlxalq humanitar hüquqa zidd olaraq Ermənistan ordusu tərəfindən kütləvi məzarlarda basdırılıb. Ermənistan hərbi cinayətkarları tərəfindən qətlə yetirilmiş 12 mülki şəxsin qalıqları 2021-ci ilin aprel ayında işğaldan azad olunmuş Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi məzarda tapılıb.

Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır.

Ermənistanda çevriliş nəticəsində hakimiyyətə gəlmiş və 1998-2018-ci illərdə hakimiyyətdə olmuş səhra komandirləri Azərbaycan ərazilərinin 30 ilə qədər davam edən işğalı ərzində məkrli arzularına və məqsədlərinə çatmaqda uğursuzluğa düçar oldular. Əksinə, 2017-ci ildə BMT Baş Assambleyasındakı çıxışımda qeyd etdiyim kimi, Ermənistan tam iflasa uğramış dövlətə çevrilib. Ermənistan o dərəcədə zəifləyib ki, heç özü sərhədlərini belə qorumaq iqtidarında deyil.

Ermənistanda hökumət tərəfindən təşviq edilən Azərbaycanofobiya artmaqdadır. Etnik nifrət və düşmənçilik üzərində qurulmuş, erməni cəmiyyətində aşılanan irqçi ideologiya Azərbaycanın Ermənistan tərəfindən keçmiş işğal olunmuş ərazilərində etnik təmizləmənin və misilsiz vandalizmin kökündə durur. Ermənistanda rejim dəyişikliyinə baxmayaraq, ölkədə faşist ideologiyası hökm sürməkdə davam edir. Ermənistanda bütün hakimiyyətlər dövründə “milli qəhrəman”a çevrilmiş nasist general Qaregin Njdenin simasında nasizm vəsf edilir.

Mütərəqqi dünya artan neofaşizm ilə mübarizə apardığı bir vaxtda, 2016-cı ildə Ermənistanın ovaxtkı prezidenti İrəvanda Qaregin Njdenin heykəlinin açılışını edib. Azərbaycan təkcə Ermənistanın işğalçı qüvvələrini deyil, həm də erməni faşizmini məğlub edib. Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik.

Xanımlar və cənablar.

Münaqişə artıq keçmişdə qaldığından azad olunmuş ərazilərdə irimiqyaslı tikinti işləri həyata keçirilməkdədir. Azərbaycan müasir şəhərsalma üsulları, “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarını tətbiq edərək, sıfırdan yeni şəhərlər və kəndlər inşa edir. Azərbaycan bütün bu işləri öz maddi imkanları hesabına görür və təkcə bu il bu məqsədlə 1.3 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb.

Lakin əsas çətinlik azad olunmuş ərazilərdə Ermənistan tərəfindən yerləşdirilmiş çoxsaylı minaların mövcudluğu ilə bağlıdır. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra bugünə qədər 2 jurnalist daxil olmaqla, 30 Azərbaycan vətəndaşı həlak olmuş, 130 nəfər isə yaralanmışdır. Azərbaycan dünyada ərazilərinin ən çox minalandığı ölkələrdən biridir. Bu, azad olunmuş ərazilərdə bərpa prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.

Ermənistan dəqiq mina xəritələrini Azərbaycana verməkdən imtina edir. Ermənistanın üç rayon üzrə təqdim etməyə məcbur olduğu mina xəritələrinin dəqiqliyi 25 faizdir. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş ərazilərimiz üzrə dəqiq mina xəritələrini bizə təqdim etsin.

Münaqişə başa çatdığından Azərbaycan Ermənistanla sərhədlərin delimitasiyası və demarkasiyası, bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması prinsipi əsasında sülh sazişi üzrə danışıqlara başlamağa hazır olduğunu artıq bəyan edib. Belə bir saziş regionumuzu sülh və əməkdaşlıq regionuna çevirə bilər. Lakin biz hələ də təklifimizlə bağlı Ermənistandan müsbət reaksiya görməmişik.

Sülh və əməkdaşlığa xidmət edən sahələrdən biri nəqliyyat layihələri ola bilər. Bu kontekstdə Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birləşdirəcək Zəngəzur dəhlizi regionumuz üçün yeni imkanlar yaradacaqdır.

Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir. Beynəlxalq ictimaiyyət bu mənada müsbət rol oynamalı və sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməlidir. Ermənistanda revanşizmin və onun silahlandırılmasının birbaşa və ya dolayı şəkildə dəstəklənməsi cəhdlərinə son qoyulmalıdır.

Ümid edirik ki, çoxdan gözlənilən sülh, təhlükəsizlik və sabitlik, nəhayət, Cənubi Qafqazda bərqərar olunacaq. Azərbaycan regional sülhə və inkişafa töhfə verən, onun gücləndirilməsinə xidmət edən ardıcıl səylərini davam edəcəkdir.

Sağ olun.

## “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi, Azərbaycan Respublikası Prezidentinin “Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında” 2009-cu il 7 avqust tarixli 144 nömrəli və “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında” 2009-cu il 9 fevral tarixli 48 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş siyahıda nəzərdə tutulan “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Bank) Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilsin.

2. Bankın nizamnamə kapitalında dövlətə məxsus səhmlərin imkan verdiyi dərəcədə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlərin həll edilməsində dövlətin adından iştiraketmə hüququ aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Bankın satılması, yenidən təşkili və ləğvi;

2.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə:

2.2.1. Bankın Müşahidə Şurasının üzvlərinin, o cümlədən onun rəhbərinin vəzifəyə seçilməsi və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.2.2. Bankın icra orqanının rəhbərinin vəzifəyə seçilməsi, onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.2.3. müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri kredit təşkilatının aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

2.2.4. Bankın nizamnamə kapitalının artırılması və azaldılması barədə qərar qəbul edilməsi, səhmlərinin buraxılması müddətlərinin və şərtlərinin müəyyənləşdirilməsi, habelə mühüm iştirak payının əldə edilməsinə razılıq verilməsi;

2.2.5. Bankın kənar auditorun təsdiqlədiyi və Audit Komitəsinin tövsiyə etdiyi illik maliyyə hesabatlarının təsdiq edilməsi, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul edilməsi;

2.2.6. Bankın nizamnaməsinin təsdiq edilməsi və onun dəyişdirilməsi;

2.2.7. Bankın törəmə təsərrüfat cəmiyyətlərinin yaradılması və fəaliyyətlərinə xitam verilməsi, başqa bankın satın alınması barədə qərarlar qəbul edilməsi;

2.2.8. bu Fərmanın 2.1-ci və 3.2-ci bəndləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, “Banklar haqqında” Azərbaycan Respublikasının Qanunu və Bankın nizamnaməsi ilə ümumi yığıncağın səlahiyyətinə aid edilmiş digər məsələlərin həll edilməsi.

3. Müəyyən edilsin ki:

3.1. Bankın fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası həyata keçirir;

3.2. Bankın Müşahidə Şurasının “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 24.1.2 - 24.1.6-cı, 24.1.7-ci (icra orqanının üzvlərinin, o cümlədən onun rəhbər müavinlərinin vəzifəyə seçilməsinə münasibətdə) və 25-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətləri vardır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan İnvestisiya Holdinqi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. “Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 avqust tarixli 144 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 620; 2016, № 2 (II kitab), maddə 269; 2019, № 3, maddə 413, № 4, maddə 635) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.1.4-cü yarımbəndə birinci halda “kredit təşkilatının” sözlərindən əvvəl “Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla,” sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

“3. Bu Fərmanın 1-ci hissəsinin müddəaları Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş kredit təşkilatlarına şamil olunmur.”.

7. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912, № 12 (I kitab), maddələr 2556, 2572; 2019, № 3, maddə 409, № 5, maddə 834, № 10, maddə 1587) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”nin 8.55-ci bəndinə “banklarda” sözündən sonra “(Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilən banklar istisna olmaqla)” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 sentyabr 2021-ci il*

## “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin və Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş siyahıda nəzərdə tutulan “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilsin.

2. Azərbaycan İnvestisiya Holdinqi:

2.1. beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, mövcud müqavilə öhdəliklərinə riayət olunması şərtilə “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin və Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətinin hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin yekunlarının diaqnostikasının aparılmasını dörd ay müddətində təmin edib nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan diaqnostika başa çatdıqdan sonra, onun nəticəsindən asılı olaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin və Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətinin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Müəyyən edilsin ki, bu Sərəncamın 2.1-ci və 2.2-ci bəndləri icra olunanadək “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin və Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətinin idarəetmə orqanları fəaliyyətini davam etdirsinlər.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 2999 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 2999 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1177; 2018, № 3, maddə 529; 2020, № 3, maddə 264) “Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti” sözlərindən sonra “Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə İsrail Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479; 2021, № 3, maddə 225, № 5, maddə 452, № 6 (I kitab), maddə 572) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın 7.1.76-cı yarımbəndindən “İqtisadiyyat Nazirliyi,” sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzillə və ya fərdi evlə təmin olunması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 1,0 (bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Suraxanı rayonunun Qaraçuxur və Hövsan qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,0 (altı) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## “Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1134; 2012, № 2, maddə 117; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2018, № 6, maddə 1285; 2019, № 10, maddə 1671) “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti” sözlərindən sonra “Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 avqust tarixli 1345 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 avqust tarixli 1345 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 923; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 7 (II kitab), maddə 1575) “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti” sözlərindən sonra “Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1111; 2007, № 11, maddə 1133; 2009, № 2, maddə 74; 2010, № 2, maddə 80, № 6, maddə 501; 2012, № 2, maddə 135; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521; 2018, № 11, maddə 2234) “Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti” sözlərindən sonra “Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Yaponiya tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 248; 2009, № 6, maddə 424; 2010, № 2, maddə 80, № 9, maddə 773; 2011, № 6, maddə 519; 2012, № 2, maddə 105; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521, № 9, maddə 1664; 2018, № 8, maddə 1677; 2019, № 3, maddə 492; 2020, № 3, maddə 262) “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri” sözlərindən sonra “Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 419; 2009, № 1, maddə 17; 2010, № 2, maddələr 80, 104, № 9, maddə 773; 2012, № 2, maddə 134; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677; 2019, № 12, maddə 1966) “Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini” sözlərindən sonra “Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Birləşmiş Ərəb Əmirlikləri tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

## “Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 530; 2010, № 2, maddə 80; 2012, № 2, maddə 132, № 12, maddə 1295; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, №7 (II kitab), maddə 1607) “Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti” sözlərindən sonra “Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Səudiyyə Ərəbistanı Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2021-ci il*

# Azərbaycanın xarici işlər naziri bir sıra görüşlər keçirib

BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov sentyabrın 22-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etdiyi və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov bölgədə olan cari təhlükəsizlik vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, Ermənistanın ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd davranışı və digər məsələlər barədə həmkarına məlumat verib. Eyni zamanda, münaqişədən sonrakı bərpa və yenidənqurma mərhələsi ətrafında fikir mübadiləsi aparılıb.

Nazirlər Azərbaycanın ATƏT ilə əməkdaşlığı, habelə ATƏT-in Nazirlər Şurasının toplantısına hazırlıq məsələlərini müzakirə ediblər.

Görüşdə tərəflər həmçinin ikitərəfli əməkdaşlıq gündəliyində duran bir sıra məsələlər üzrə fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatına (QH) üzv dövlətlərdən Madaqaskar xarici işlər naziri Patrik Rajoelina, Nikaraqua xarici işlər naziri Denis Moncada Kolindres və Kabo Verdenin xarici işlər naziri Rui Figeredo Soares ilə ikitərəfli görüşlər keçirib.





Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşlərdə Azərbaycan ilə QH üzv ölkələrinin əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Tərəflər mədəniyyət, turizm, nəqliyyat, humanitar, xüsusilə də iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə edib, habelə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüşlərdə həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək, BMT Baş Assambleyasının 76-cı sessiyasının gündəliyi üzrə maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşlər zamanı Azərbaycanın Hərəkatda sədrlik prioritetləri müzakirə mövzusu olub. Nazir Ceyhun Bayramov Azərbaycanın pandemiya ilə mübarizə sahəsində Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı etdiyini və bunun yarısının Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulduğunu qeyd edib. Həmçinin Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizdə təhsil almaq imkanı verən təqaüd proqramı barədə qarşı tərəfə məlumat verilib.

Müqabil tərəflər Azərbaycanın QH-yə uğurlu sədrliyini və Azərbaycan Prezidentinin QH sədri qismində COVID-19-a qarşı mübarizə ilə bağlı irəli sürdüyü qlobal əhəmiyyətli təşəbbüsləri təqdir etdiklərini bildiriblər.

Tərəflər beynəlxalq gündəlikdəki cari məsələlər, o cümlədən regional vəziyyət barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Ermənistanın növbəti təcavüzünə cavab olaraq ötən il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi, 10 noyabr tarixli üçtərəfli Bəyanat və onun icrası barədə qarşı tərəfə məlumat verib. Eyni zamanda münaqişədən sonrakı bərpa və yenidənqurma mərhələsini qeyd edən Ceyhun Bayramov, yeni təhlükəsizlik və əməkdaşlıq çərçivəsinin yaradıldığını və bunun bölgənin inkişafı və rifahı üçün yeni imkanlar açdığını bildirib.

Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 76-cı sessiyasında iştirakı çərçivəsində sentyabrın 22-də Finlandiyanın xarici işlər naziri Pekka Olavi Haavisto ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin inkişaf səviyyəsindən məmnunluq ifadə edilib və bu əlaqələrin genişləndirilməsi perspektivləri barəsində fikir mübadiləsi aparılıb, həmçinin hazırda Azərbaycan ilə Finlandiya arasında bütün səviyyələrdə qarşılıqlı anlaşmanın mövcud olduğu vurğulanıb.

Görüş zamanı ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, o cümlədən siyasi, iqtisadi, humanitar, təhsil, kənd təsərrüfatı, yüksək texnologiyalar, sərmayə qoyuluşu, mədəni sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə dair, eləcə də regional təhlükəsizlik məsələləri, üçtərəfli Bəyanatdan irəli gələn müddəaların həyata keçirilməsi və etimadın qurulması tədbirlərinin reallaşması üzrə fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərimizdəki son vəziyyət, bu ərazilərdə Ermənistan tərəfindən məqsədli şəkildə törədilən genişmiqyaslı dağıntılar, tarixi-mədəni irsin məhv edilməsi, ətraf mühitə böyük zərərin vurulması, habelə mina təhlükəsi barədə danışıb, hazırda həyata keçirilən bərpa və yenidənqurma prosesi haqqında qarşı tərəfə ətraflı məlumat verib. O, Azərbaycana qarşı onilliklər ərzində həyata keçirilən təcavüzkar siyasətə rəğmən, ölkəmizin beynəlxalq hüquq prinsipləri əsasında qonşu dövlətlə münasibətləri normallaşdırmağa hazır olduğunu qeyd edib.

Tərəflər həmçinin ATƏT çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Pekka Haavisto ölkəsinin Azərbaycanla müxtəlif istiqamətlər üzrə əlaqələri genişləndirməkdə maraqlı olduğunu ifadə edib. O, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyinin təqdirəlayiq olduğunu bildirib və üçtərəfli bəyanatın icrasının vacib olduğunu vurğulayıb.

Daha sonra tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

# Milli Məclisdə İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının nümayəndə heyəti ilə görüş keçirilib

Sentyabrın 23-də Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (İƏT MDİHK) sədri Saed Mohammed Abdulla Omair Alğfelinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan Əli Hüseynli İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının bir sıra münaqişələrlə səmərəli məşğul olduğunu qeyd edib, komissiyanın Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti zamanı insan hüquqları pozuntusu faktlarını araşdırmaq üçün ölkəmizə səfərini yüksək qiymətləndirib.

Milli Məclis Sədrinin birinci müavini vurğulayıb ki, Qarabağ münaqişəsi artıq mövcud deyil, çünki Azərbaycan beynəlxalq hüquqa əsasən, məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin də tələblərinə uyğun olaraq torpaqlarını Ermənistanın işğalından azad edib. Əli Hüseynli Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətləri faktları ilə bağlı respublikanın hüquq mühafizə orqanlarının apardığı təhqiqatlarda, həm də beynəlxalq təşkilatların hesabatlarında tutarlı faktların mövcud olduğunu qeyd edib.

Görüşdə iştirak edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc İƏT və onun qurumlarının Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı ədalətli və birmənalı mövqeyindən, həm təşkilatın, həm də üzv dövlətlərin erməni təcavüzünü qətiyyətlə pisləməsindən, işğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz çıxmasının tələb edilməsindən razılıqla söz açıb. Bildirilib ki, Azərbaycan da öz növbəsində İƏT ölkələrinin başlıca problemlərinə dair aparılan müzakirələrdə, qərar və qətnamələrin qəbul edilməsində daim konstruktiv və birmənalı mövqe sərgiləyib, İslam ölkələri ilə bütün sahələrdə əməkdaşlığa böyük önəm verib.

İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədri Saed Mohammed Abdulla Omair Alğfeli öz növbəsində səfər çərçivəsində Ermənistan işğalından azad olunmuş ərazilərimizə səfər edəcəklərini bildirib və faktaraşdırıcı missiya həyata keçirəcəkləri barədə məlumat verib.

Söhbət zamanı İƏT MDİHK-nın sədr müavini Hacı Ali Açıkgül, komissiya katibliyinin icraçı direktoru Butt Marghub Salim, həmçinin Ombudsman Aparatının rəhbəri, İƏT MDİHK-nın üzvü Aydın Səfixanlı missiyanın görəcəyi işlər, aparacağı araşdırmalar barədə danışıblar. Qeyd edilib ki, hesabat hazır olandan sonra dünya ictimaiyyətinə təqdim ediləcək.

# İƏT Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının nümayəndə heyəti Ulu Öndərin məzarını ziyarət edib

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyası sədrinin rəhbərlik etdiyi ekspertlərdən ibarət beynəlxalq nümayəndə heyəti sentyabrın 23-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.



AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyeva, görkəmli ictimai xadim Əziz Əliyev və Əməkdar elm xadimi, professor Tamerlan Əliyevin xatirələri ehtiramla anılıb, məzarları üzərinə gül dəstələri düzülüb.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri Baş Prokurorluğun yeni inzibati bina kompleksində olublar





Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri Azərbaycan Prokurorluğunun yaradılmasının 103-cü ildönümü, habelə 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə prokurorluq əməkdaşlarını təbrik məqsədilə sentyabrın 23-də Azərbaycan Respublikası Baş Prokurorluğunun Binəqədi rayonunun Dərnəgül yaşayış sahəsində yerləşən yeni inzibati bina kompleksində olublar.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir çərçivəsində qonaqlar inzibati bina kompleksində prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, tədris auditoriyaları və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqlarına baxıblar.

Sonra Baş prokurorun müavini Elmar Camalovun rəhbərlik etdiyi heyət qonaqlarla görüşüb.

Görüşdə qonaqlara Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəal hüquq-mühafizə siyasəti və yüksək dövlət qayğısı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirildiyi, infrastrukturunun yaxşılaşdırıldığı vurğulanıb, prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar, əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verilib.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə görülən işlərdən məmnunluğunu bildirib, 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə bütün prokurorluq əməkdaşlarına uğurlar arzulayıb.

Söhbət zamanı qarşılıqlı əməkdaşlığın istiqamətləri müzakirə edilib.

# İƏT-in nümayəndə heyəti Ermənistanın müharibə cinayətləri barədə məlumatlandırılıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyası sədrinin rəhbərlik etdiyi ekspertlərdən ibarət nümayəndə heyəti ilə görüşüb.

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, Səbinə Əliyeva qonaqlara Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzkarlıq, işğalçılıq və terror siyasəti nəticəsində soydaşlarımızın insan hüquqlarının kobud şəkildə pozulması, mülki əhaliyə qarşı törədilən müharibə cinayətləri barədə ətraflı məlumat verib.

Müvəkkil 2020-ci il sentyabrın 27-dən Ermənistanın növbəti ərazi iddiaları ilə ölkəmizə qarşı təcavüzü zamanı yaşayış obyektlərinə, sosial infrastruktura, mədəni-tarixi abidələrə, eyni zamanda, mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə olunması nəticəsində uşaq, qadın, ahıllar da daxil olmaqla çoxsaylı insan tələfatı və dağıntıların olduğunu bildirib. Ombudsman Səbinə Əliyeva vurğulayıb ki, Azərbaycan Respublikası özünümüdafiə hüququndan istifadə edib və öz əzəli torpaqlarının bütövlüyünün bərpası məqsədilə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun əks-hücum əməliyyatları başlaması ilə 44 günlük Vətən müharibəsi nəticəsində tarixi ədalət bərqərar olunub və işğal altındakı ərazilərimiz azad edilib.

Görüşdə səfər çərçivəsində həyata keçiriləcək faktaraşdırıcı missiya, Ermənistanın Azərbaycan ərazilərində törətdiyi müharibə cinayətləri, mədəni abidələrin dağıdılması faktları və həyata keçirilmiş ekoloji terrorun nəticələri barəsində müzakirələr aparılıb.

İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədri Saed Mohamed Abdulla Omair Alğafeli Azərbaycan ombudsmanı Səbinə Əliyevaya dəvətə görə öz dərin təşəkkürünü bildirib.

Xatırladaq ki, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədri Saed Mohamed Abdulla Omair Alğafeli, sədrin müavini Hacı Ali Açıkgül, Komissiya katibliyinin direktoru Javed Saqlain, Komissiya katibliyinin icraçı direktoru Butt Marğoob Saleem, işğaldan azad edilmiş, həmçinin Vətən müharibəsi zamanı hərbi əməliyyatların aparıldığı ərazilərdən uzaqda yerləşən, mülki əhali və obyektləri hədəfə alan raket hücumları nəticəsində dağıdılmış ərazilərdə birgə faktaraşdırıcı missiya həyata keçirmək məqsədilə ombudsmanın dəvəti ilə ölkəmizdə rəsmi səfərdədirlər.

# Azərbaycanın Baş prokuroru MDB dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib

Sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultanda Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclası keçirilib.







AZƏRTAC xəbər verir ki, MDB dövlətlərinin prokurorluq orqanlarının və beynəlxalq təşkilatların rəhbər şəxslərinin qatıldıqları tədbirdə ölkəmizi Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Şuranın iclasında Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat verərək, “Cinayət təqibindən kənar icraatlarda prokurorluğun fəaliyyəti” mövzusunda çıxış edib.

Çıxışda ölkəmizdə prokurorluğun cinayət təqibindən kənar fəaliyyəti, o cümlədən inzibati və mülki icraatda insan hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə tədbir iştirakçılarına məlumat verilib.

İclasda həmçinin MDB dövlətlərinin Baş prokurorlarının və beynəlxalq təşkilatların rəhbərlərinin cinayətkarlığın müxtəlif təzahürlərinə qarşı prokurorluqların rolu haqda çıxışları dinlənilib.

Sonra təşkilati məsələlər müzakirə edilərək əməkdaşlıq haqqında müvafiq sənədlər imzalanıb.

Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov Şuranın növbəti il üçün sədri seçilib, Katibliyin məsul vəzifələrinə seçkilər keçirilib.

Şuranın 32-ci iclasının 2022-ci ildə Belarus Respublikasının paytaxtı Minskdə, 2023-cü ildə isə Bakıda keçirilməsi qərara alınıb.

Tədbir çərçivəsində Baş prokuror Kamran Əliyev Qazaxıstanın Baş prokuroru Gizat Nurdauletov və Rusiyanın Baş prokuroru İqor Krasnov ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib, gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri, o cümlədən prokurorluqlarımız arasında imzalanmış bir sıra sənədlərin icrası mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Həmçinin səfər çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan Baş prokurorlarının üçtərəfli görüşü keçirilib. Görüşdə Azərbaycan Prezidentinin, Rusiya Prezidentinin və Ermənistan baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlarının müvafiq bəndlərinin icrası, həmçinin hüquqi əməkdaşlıq mexanizmləri müzakirə olunub. Səfər çərçivəsində “Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq mühafizə orqanlarının Akademiyası arasında tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında memorandum” imzalanıb.

Baş prokuror Kamran Əliyevin Belarus, Qırğızıstan, Özbəkistan, Tacikistan və Moldovanın Baş prokurorları, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə keçirdiyi görüşlərdə mövcud əlaqələr və əməkdaşlığın perspektivləri ətrafında faydalı müzakirələr aparılıb.

Tədbirlərdə Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov da iştirak edib.

# Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş

Qazaxıstanın paytaxtı Nur-Sultanda MDB dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclası çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə üçtərəfli formatın səmərəliliyi qeyd edilərək son doqquz ay ərzində Qarabağda qanunun aliliyinin və hüquq qaydasının möhkəmləndirilməsi məqsədilə tərəflərin gördüyü işlər müsbət dəyərləndirilib.

Törədilmiş hüquqpozmalara dair məlumatların Qarabağda yerləşən Rusiya Sülhməramlı Qüvvələrinə təhkim olunmuş Baş Hərbi Prokurorluğun nümayəndələri ilə əlaqəli şəkildə mübadiləsinin, habelə həmin məlumatlar üzrə müvafiq tədbirlərin görülməsi sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirilib.

Azərbaycanın Baş prokuroru Kamran Əliyev 44 günlük Vətən müharibəsindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq bu prosesin davam etdirilməsinin önəmini vurğulayıb. Minalanmış ərazilərin xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyəti diqqətə çatdırılıb və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi qeyd olunub. Azərbaycan tərəfindən 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata tam şəkildə riayət olunduğu bildirilib.

Rusiyanın Baş prokuroru İqor Krasnov Azərbaycan və Ermənistandan olan həmkarlarına bölgə xalqlarının rifahı naminə sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür edib.

Görüşdə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

Tərəflər gələcəkdə gərginliyə səbəb olan halların qarşısının alınması üçün əlaqələrin gücləndirilməsi ilə bağlı razılaşmanı bir daha dəstəkləyiblər.

## Sentyabrın 27-də Azərbaycanda Anım Günü qeyd olunacaq

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd ediləcək.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar olaraq bu il sentyabrın 27-də bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. Təşkilat Komitəsindən verilən məlumata görə, Anım Günündə şəhidlərimiz Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad olunacaq, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunacaq.

Saat 12:00-da ölkə ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək.

Axşam saatlarında xüsusi işıqlandırma ilə bir sıra binalarda, o cümlədən Heydər Əliyev Mərkəzinin binasının və “Alov qüllələri”nin üzərində Azərbaycan bayrağı əks olunacaq. Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi tərəfindən anım tədbirləri təşkil ediləcək.

Anım Günü ilə əlaqədar mərkəzi və yerli icra hakimiyyəti strukturları ölkə miqyasında bir sıra tədbirlər təşkil edəcək, eləcə də ölkəmizin xaricində anım mərasimləri keçiriləcək.

# *Kamran ƏLİYEV:* “MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclası hərtərəfli hüquqi əməkdaşlıq baxımından çox əhəmiyyətlidir”

“MDB iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultanda keçirilən 31-ci iclasında Azərbaycan da nümayəndə heyəti ilə təmsil olunur. Bu tədbir Azərbaycanın hüquq mühafizə orqanları, o cümlədən prokurorluğu üçün mühüm hadisələrdən biridir”.

Bu fikri Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev sentyabrın 23-də Nur-Sultanda AZƏRTAC-a müsahibəsində deyib.

İclasın MDB iştirakçı dövlətlərinin Baş prokurorluqları ilə cinayətkarlığa qarşı mübarizə, prokurorluğun fəaliyyətinin müxtəlif sahələri üzrə hərtərəfli hüquqi əməkdaşlığın həyata keçirilməsi baxımından əhəmiyyətini yüksək qiymətləndirən Kamran Əliyev deyib: “Bu tədbir, həmçinin digər ölkələrin prokurorluq orqanları ilə ikitərəfli əlaqələrin qurulması, inkişaf etdirilməsi, daha səmərəli əməkdaşlığın həyata keçirilməsi baxımından zəruri idi. Bu gün Qazaxıstan Respublikasının və Rusiya Federasiyasının Baş prokurorları ilə görüşlərimiz oldu. Həmin görüşlərdə ikitərəfli münasibətlərin daha da intensivləşdirilməsi məsələsi müzakirə edildi. Mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də “Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq mühafizə orqanlarının Akademiyası arasında tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında” memorandumun imzalanması oldu. Memoranduma uyğun olaraq, gələcəkdə bu sahədə fəaliyyətimizi davam etdirəcəyik”.

İclas çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında keçirilən üçtərəfli görüşlə bağlı məlumat verən Kamran Əliyev qeyd edib: “Bu, bizim üçtərəfli formatda ikinci görüşümüz idi. Birinci görüş bu il yanvarın 12-də Moskvada baş tutmuşdu. Nur-Sultanda təşkil olunan görüşdə əsas məqsəd Azərbaycan Prezidentinin, Rusiya Prezidentinin və Ermənistanın baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlarının prokurorluq orqanlarına aid müvafiq bəndlərinin icrası ilə bağlı idi. İclasda bir sıra zəruri məsələlər müzakirə olundu və bu istiqamətdə Rusiya Baş Prokurorluğunun vasitəçiliyi ilə fəaliyyətimizi davam etdirməyi qərara aldıq. Hesab edirəm ki, bu sahədə də bizim fəaliyyətimiz müsbət nəticələr verəcək”.

# Polis Akademiyasının yaranmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib





Daxili İşlər Nazirliyinin (DİN) Polis Akademiyasının yaranmasının 100 illiyi münasibətilə təntənəli mərasim keçirilib.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Polis Akademiyasında keçirilən mərasimdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, respublikanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Polis Akademiyasının təsis olunmasının 100 illik yubileyi münasibətilə bu tədris ocağının şəxsi heyətini, məzunlarını, veteranlarını təbrik edib.

Akademiyanın keçdiyi şərəfli yola nəzər salan Vilayət Eyvazov bildirib ki, 1921-ci ildə milis nəfəri və komandir kadrları hazırlayan məktəb statusunda yaradılmış bu tədris müəssisəsi akademiya səviyyəsinə qədər yüksəlib, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə böyük inkişaf yolu keçib.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif illərdə akademiyada keçirilən təntənəli mərasimlərdə iştirak etdiyini, zəruri göstərişlər verdiyini, diqqət və qayğısı sayəsində bu təhsil müəssisəsinin maddi-texniki bazasının, tədris prosesinin əhəmiyyətli şəkildə təkmilləşdiyini diqqətə çatdırıb. Müəllim və kursantların istifadəsinə müasir tədris korpusları və texnoloji avadanlıq, yeməkxana və yataqxanalar, idman kompleksi, virtual təlim otaqları, poliqon, zəngin fondu olan elektron kitabxana, xarici dil mərkəzi, konfrans zalı verildiyi vurğulanıb.

Çıxışda akademiyanın beynəlxalq əlaqələrini ildən-ilə genişləndirərək xarici ölkələrin 20-dən çox xüsusi təyinatlı təhsil müəssisəsi ilə əməkdaşlıq həyata keçirdiyi, tədris prosesində informasiya texnologiyalarından geniş istifadə olunduğu, xüsusi metodlara və interaktiv təlimə üstünlük verildiyi, kursantlara vətənpərvərlik hissi, zabit qüruru, saf mənəviyyat aşılandığı, bütün bunların mütəxəssis hazırlığını şərtləndirən mühüm amillər olaraq cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində müsbət nəticələrin əldə olunmasına zəmin yaratdığı bildirilib.

Azərbaycan polisinin peşəkar, milli ruhda tərbiyə olunmuş, dövlətçiliyə, Vətənə və xalqa sadiq bütöv bir nəslinin ərsəyə gəlməsində Polis Akademiyasının da əhəmiyyətli rolunu xüsusi vurğulayan nazir diqqətə çatdırıb ki, ötən 100 ildə bu təhsil müəssisəsinin məzunlarının ümumi sayı təxminən 25 min nəfər təşkil edib və bu gün daxili işlər orqanları üzrə şəxsi heyətin 82 faizi ali təhsilli hüquqşünaslardır. Məzunlardan 25 nəfəri ali rütbələrə, 12 nəfəri (6-sı ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Çıxışında professor-müəllim heyətinin qarşısında duran vəzifələrə xüsusi yer verən daxili işlər naziri bildirib ki, onlardan başlıcası Azərbaycanın ali təhsil müəssisələrinin sırasında layiqli yeri olan akademiyanı, buradakı tədris və təlim prosesini qabaqcıl beynəlxalq təcrübə əsasında inkişaf etdirmək, polisdə xidmətin bütün şərtlərinə cavab verən ixtisaslı kadr hazırlığı fəaliyyətini hərtərəfli dəstəkləmək, kursant və dinləyicilərdə analitik düşüncə tərzi, müasir texnologiyalarla işləmək, ekstremal şəraitdə düzgün qərar çıxarmaq və tədbirlər görmək vərdişi formalaşdırmaq, möhkəm intizamın təməli sayılan hərbi, fiziki və sıra hazırlığını yüksəltmək, hər bir fənnin tədrisi prosesində qanunla müəyyən edilmiş funksiyaların icrasını vətəndaş məmnunluğu prinsipi üzərində qurmağı öyrətmək, zəruri biliklərə və iş metodlarına yiyələndirmək, yeni təsis olunmuş magistratura və doktorantura pillələrində akademiya, bütövlükdə daxili işlər orqanları üçün elmi potensiallı mütəxəssislər yetişdirməkdir.

Mərasimdə həmçinin Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov çıxış edərək planlaşdırılan və görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıya qoyulmuş vəzifələrin icrası barədə məruzə edib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu təhsil ocağına əvvəlki illərdə rəhbərlik etmiş polis veteranlarını da təbrik edərək onlara akademiyanın 100 illiyi münasibətilə hazırlanmış döş nişanlarını təqdim edib.

Təntənəli mərasim akademiyaya yeni qəbul olunmuş kursantların andiçmə mərasimi və şəxsi heyətin tribuna önündən keçidi ilə başa çatıb.

# “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatının təqdimatı

Sentyabrın 23-də Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) təşkilatçılığı ilə cari iqtisadi vəziyyət və biznesin inkişaf perspektivləri, həmçinin ölkədə investisiya mühiti və həyata keçirilən iqtisadi islahatların səmərəliliyi haqqında “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatının təqdimatı keçirilib.



Tədbirdə yerli və beynəlxalq işgüzar dairələrin 100-dən çox nümayəndəsi iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Alman-Azərbaycan Xarici Ticarət Palatası tərəfindən nəşr olunan “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatının ölkəmizdə pandemiyanın iqtisadiyyata təsirinin müəyyənləşdirilməsi və təhlil edilməsində, həmçinin mənfi təsirlərin minimuma endirilməsi istiqamətində həyata keçirilən islahatların qiymətləndirilməsində faydalı platforma olduğunu vurğulayıb, bu cür hesabatların işgüzar dairələrin rəyinin öyrənilməsi, biznes çağırışlarının dəyərləndirilməsi baxımından əhəmiyyətini qeyd edib. Nazir ölkəmizdə biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun, regionların və sahibkarlığın inkişafı ilə bağlı görülmüş işlər, pandemiyanın Azərbaycanda biznes mühitinə təsiri və hökumətin dəstək mexanizmləri, sənaye zonalarının, həmçinin Ələt Azad İqtisadi Zonasının logistika imkanları barədə məlumat verib. Milli prioritetlərimizdən olan işğaldan azad edilmiş ərazilərimizə Böyük qayıdış, bu ərazilərdə reallaşdırılacaq “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarından danışan Mikayıl Cabbarov burada yeni biznes və investisiya imkanlarını qeyd edib, Ağdam Sənaye Parkının strateji əhəmiyyətini vurğulayıb və işğaldan azad edilmiş ərazilərdə yeni sənaye zonasının yaradılacağını deyib.

“AHK Azərbaycan”ın İdarə Heyətinin sədri Fərid İsayev dövlət-özəl tərəfdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edib, dialoq mühitinin inkişafında dövlət qurumlarının, o cümlədən İqtisadiyyat Nazirliyi yanında İctimai Şuranın yaradılmasının əhəmiyyətini vurğulayıb. Fərid İsayev “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatının hazırlanması zamanı ölkəmizdə təmsil olunan xarici şirkətlər arasında ətraflı sorğular aparıldığını, onların işgüzar mühit, habelə işğaldan azad edilmiş ərazilərdə biznesin qurulması və bərpa işlərində iştirakı barədə fikirlərinin öyrənildiyini diqqətə çatdırıb. Bildirilib ki, “AHK Azərbaycan”ın işğaldan azad edilmiş ərazilərində infrastruktur layihələrinin sürətli icrasını diqqətlə izləyir. Qeyd edilib ki, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, habelə Zəngəzur dəhlizinin yaradılması istiqamətində aparılan aktiv işlər biznes üçün yeni imkanlar yaradır. İcraçı direktor vurğulayıb ki, AHK-a üzv şirkətlər işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq layihələrinə böyük maraq göstərir.

“AHK Azərbaycan”ın icraçı direktorunun müavini Nigar Bayramlı “Azərbaycanda Xarici Biznes: Biznes mühiti sorğusu 2021” hesabatı ilə bağlı təqdimatla çıxış edib. Qeyd edib ki, hesabat 2021-ci ilin may-iyul aylarında Azərbaycanda fəaliyyət göstərən xarici biznes nümayəndələri arasında keçirilən Biznes Mühiti Sorğusunun nəticələrinə əsaslanır. Hesabatın hazırlanması üçün Azərbaycanda fəaliyyət göstərən və 30 ölkəni təmsil edən 270 xarici şirkətə sorğu göndərilib, dəyərləndirmə üçün 130 etibarlı və tamamlanmış cavab seçilib. Sorğuda iştirak edən xarici şirkətlərin 88 faizi mikro müəssisələr və KOB-lardır. Şirkətlərin 67 faizi 10 ildən çoxdur ki, Azərbaycanda öz layihələrini həyata keçirir. Respondentlərin 68 faizi Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətini stabil qiymətləndirib. Əvvəlki hesabatda bu göstərici 39 faiz təşkil edirdi. Xarici şirkətlərin 57 faizi Azərbaycanda fəaliyyətini genişləndirmək və ya yeni investisiya qoymaq niyyətini ifadə ediblər. Sorğuda iştirak edən xarici şirkətlərin 43 faizi fəaliyyət sahələri üzrə işğaldan azad edilmiş ərazilərin bərpasında iştirak edə biləcəklərini, 22 faizi bu layihələrdə iştirakının mümkünlüyünü, 17 faizi isə yüksək maraq göstərdiklərini bildiriblər. Respondentlərin 60 faizi Azərbaycanı əlverişli biznes məkanı kimi tövsiyə edir.

Hesabatda, həmçinin biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində islahatların davam etdirilməsi gözləntiləri də əksini tapıb. Sonra hesabat barədə ekspertlərin rəyləri dinlənilib.

# Tvinninq layihəsi çərçivəsində Medianın İnkişafı Agentliyində görüş



Sentyabrın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi” adlı Tvinninq layihəsi çərçivəsində Medianın İnkişafı Agentliyində görüş keçirilib.

Medianın İnkişaf Agentliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Tvinninq layihəsinin “İctimai maarifləndirmə kampaniyasının aparılması” adlı komponenti çərçivəsində Bakıya səfər edən avstriyalı ekspertlər Tomas Heinlen və Manuela Harqazner-Delpos, rezident tvinninq əlaqələndiricisi Laurinas Totoraitis, eləcə də Dövlət Komitəsinin İnformasiya şöbəsinin müdiri Elgün Səfərov iştirak ediblər.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qurumun fəaliyyəti barədə məlumat verib. Mediada məişət zorakılığı məsələlərinin işıqlandırılması ilə bağlı müxtəlif məqamları müzakirə edib və bu sahədə jurnalistlərin məlumatlılığının artırılmasının əhəmiyyətini vurğulayıb.

Laurinas Totoraitis isə media nümayəndələri üçün nəzərdə tutulan təlimlərin təşkilində MEDİA Agentliyinin rolunu xüsusi qeyd edib.

Görüşdə bildirilib ki, bu ekspert missiyası çərçivəsində məişət zorakılığı sahəsində ictimai maarifləndirmə kampaniyasının aparılması üzrə proqramın işlənib hazırlanması nəzərdə tutulub. Proqram Tvinninq layihəsinin ekspertlərinin dəstəyi, Dövlət Komitəsinin müvafiq əməkdaşları və media nümayəndələrinin iştirakı ilə hazırlanacaq.

Qeyd edək ki, layihənin məqsədi məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi sahəsində dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin potensialının gücləndirilməsidir.

# UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə ANAMA-da görüş olub

Sentyabrın 23-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Aleks Haykens ilə görüşüb.



ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə Vüqar Süleymanov yeni təyinatı ilə bağlı Aleks Haykensi təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Sonra agentliyin yaradılması, məqsədi və üzərinə düşən vəzifələri, qarşıya qoyulmuş prioritetləri, eləcə də işğaldan azad edilən ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlarının gedişi barədə məlumat verib.

Mina və partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə proqramı çərçivəsində ANAMA ilə UNICEF-in bir neçə uğurlu layihələri haqda məlumat verən Vüqar Süleymanov mina riskinin azaldılması sahəsində göstərdikləri dəstəyə görə təşəkkürünü bildirib.

Aleks Haykens UNICEF ilə agentliyin 20 ilə yaxın sıx əməkdaşlıq tarixçəsinin olduğunu qeyd edib. İşğaldan azad edilən ərazilərin yaxınlığında yaşayan ailə və uşaqlar arasında təhlükəsiz davranış qaydaları və məlumatlılığın artırılması məqsədilə minimum risklərə nail olmaq üçün ikitərəfli əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıb.

# Tehranda Azərbaycan ilə İƏT arasında əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilib



Sentyabrın 22-də Azərbaycanın İrandakı səfiri, eyni zamanda, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) yanında daimi nümayəndəsi Əli Əlizadə təşkilatın Baş katibi Xusrav Noziri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, səfir Azərbaycanın İƏT-lə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini qeyd edərək ölkəmizin təşəbbüsü ilə təşkilat çərçivəsində həyata keçirilən bir sıra mühüm layihələrin bunu bir daha təsdiqlədiyini bildirib. İƏT çərçivəsində ticarət, investisiya, nəqliyyat, enerji, turizm və ətraf mühit sahələri üzrə əməkdaşlığın önəmini vurğulayan səfir Azərbaycandan keçən nəqliyyat dəhlizlərinin, istifadəyə verilmiş liman və azad iqtisadi zonaların, ölkəmizin təşəbbüsü ilə Bakıda fəaliyyət göstərəcək İƏT Tədqiqat Mərkəzinin və bu kimi digər layihələrin regional əməkdaşlığa töhfə verdiyini qeyd edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı İƏT-in ölkəmizin ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirən və bu dəstəyin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini deyən səfir 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın erməni işğalından azad olunması ilə regionda yeni reallıqların, əməkdaşlıq üçün yeni imkanların yarandığını diqqətə çatdırıb. Diplomat təşkilata üzv ölkələrin şirkətlərinin və biznes dairələrinin bu ərazilərdə də sərmayə qoyuluşu həyata keçirərək təklif edilən imkanlardan yararlana biləcəyini diqqətə çatdırıb. Səfir Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi kimi fəaliyyəti müddətində təşkilat çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığın daha da genişləndirilməsinə və müştərək layihələrin həyata keçirilməsinə töhfə verməyə çalışacağını bildirib.

Xusrav Noziri səfir Ə.Əlizadəni Azərbaycan Respublikasının İran İslam Respublikasında səfiri, eyni zamanda, İƏT yanında daimi nümayəndəsi təyin olunması münasibətilə təbrik edib. Baş katib Azərbaycanın İƏT-in vacib ölkələrindən biri olduğunu deyib, təşkilat çərçivəsində əməkdaşlığa göstərdiyi diqqət və aktiv fəaliyyətə görə təşəkkürünü bildirib. Qarşıdan gələn İƏT-in 15-ci Zirvə toplantısının və 25-ci Nazirlər Şurasının iclasının təşkili istiqamətində intensiv işlərin getdiyini vurğulayan X.Noziri bu tədbirlərin üzv ölkələrin birgə səyləri nəticəsində uğurla başa çatacağına ümidvar olduğunu bildirib. O, səfir Əli Əlizadəyə fəaliyyətində müvəffəqiyyətlər arzulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# Gürcüstanlı jurnalistlər və blogerlər Gəncədə Ermənistanın törətdiyi cinayətlərlə tanış olublar

Azərbaycana səfər edən bir qrup gürcüstanlı media nümayəndəsi və blogerlər Gəncədə Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları ilə törətdiyi cinayət səhnələri ilə tanış olublar.








AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfərin məqsədi 19 nəfərdən ibarət nümayəndə heyətini ötən il oktyabrın 11-də və 17-də gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri, cəbhə zonasından kənarda yerləşən Gəncənin Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Ermənistanın hərbi cinayətləri ilə tanış olan qonaqlara məlumat verilib ki, işğalçı dövlətin silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub. Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla onlarla mülki şəxs həlak olub və yaralanıb.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə “Toçka-U”, “Smerç”, “Skad” və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Mülki vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Səfərdə iştirak edən gürcüstanlı jurnalist Maryam Latabidze AZƏRTAC-a müsahibəsində gördüklərindən dəhşətə gəldiyini deyib: “Mülki insanlara qarşı bu cür vəhşiliklər böyük faciədir. Azərbaycan sonda zəfər qazandı və öz ərazi bütövlüyünü bərpa etmək uğrunda böyük addım atdı. Həlak olan bütün dinc sakinlərə Allahdan rəhmət diləyirəm”.

Qeyd edək ki, gürcüstanlı jurnalistlər ötən gün işğaldan azad edilən Şuşa şəhərində olublar.

> Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda sözdə yox, əməldə aparılır. Bu mübarizə xalq tərəfindən yüksək qiymətləndirilir. Mən vətəndaşlardan minlərlə məktub alıram. Onlar mənim bu addımlarımı alqışlayır və eyni zamanda bəzi məsələlərə diqqətimi çəkir. Şadam ki, son vaxtlar ictimai nəzarət mexanizmi daha da mütəşəkkil forma alır. Mən bunu alqışlayıram.
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti**

# Korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın rolu

Hər bir dövlətin suverenliyi onun müəyyən edilmiş ərazisi, daimi əhalisi, idarəçiliyi və digər dövlətlərlə münasibət qurmaq bacarığı əsasında qiymətləndirilir. İstiqlalını elan etdiyi qısa zaman ərzində əsrə bərabər inkişaf yolu keçən Azərbaycan Respublikası da beynəlxalq birliyin tamhüquqlu subyekti kimi daim səylərini müstəqilliyini şərtləndirən amillərin möhkəmləndirilməsinə yönəltmiş, suverenliyinə xələl gətirə biləcək hər hansı təhdidə qarşı sistemli mübarizə sərgiləmişdir.

Belə ki, dünya birliyinin pandemiyaya qarşı mübarizəyə səfərbər olunduğu həssas dövrdə torpaqlarımızın işğalını davam etdirmək niyyətində olan Ermənistanın cəbhə xəttində törətdiyi ardıcıl təxribatlara cavab olaraq öz xalqının iradəsinə arxalanan dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusu düşmən tapdağı altında olan tarixi torpaqlarımızın azadlığı uğrunda ötən il sentyabr ayının 27-dən etibarən zəfər yürüşünə başladı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində 30 ildən bəri düşmən əsarətində olan Qarabağ əbədi azadlığına qovuşdu. Bununla da xalqımızın parlaq dühası Heydər Əliyevin xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü ilə bağlı müqəddəs vəsiyyəti gerçəkləşdirildi.

Haqq işimizin məntiqi nəticəsi olaraq, xalqımızın Vətən müharibəsi dövlət başçısının yenilməz iradəsi, əsgərlərimizin və ölməz şəhidlərimizin qəhrəmanlığı sayəsində 2020-ci ilin 10 noyabr tarixində zəfərlə başa çataraq, işğalçı Ermənistan təslim olmağa məcbur edildi və ölkəmizin ərazi bütövlüyü təmin olundu.

Müharibə günlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mütəmadi olaraq xarici media nümayəndələri vasitəsilə haqq səsimizi dünyaya çatdırması və cari vəziyyətlə əlaqədar vaxtaşırı xalqı məlumatlandırması, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əsgər və şəhid analarına diqqət və qayğısı hər bir azərbaycanlıda qətiyyətli vətəndaş mövqeyi və qələbəyə sonsuz inam formalaşdırdı.

Başqa sözlə desək, 44 gün ərzində Azərbaycanın hərbi üstünlüyü dövlətimizin diplomatik sahədə və informasiya savaşındakı uğurları ilə müşayiət olundu. Yenilməz ordumuz qarşısında aciz qalan mənfur düşmənin beynəlxalq humanitar hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini kobud şəkildə pozmaqla Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələrimizə qəsdən hava zərbələri yetirməsi kimi təhrikedici cinayətləri belə ölkəmizi humanist mövqeyindən daşındıra bilməmiş, əksinə, Azərbaycan məlum dövr ərzində beynəlxalq ictimaiyyətin sülhə çağırışlarına daim sadiqlik nümayiş etdirmişdir.

Xüsusi vurğulanmalıdır ki, müharibə dövründə Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən zəruri tədbirlər həyata keçirilmiş, baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən düşmən hücumuna məruz qalmış bölgələrə mütəmadi olaraq səfərlər təşkil edilmiş, erməni təcavüzü ilə əlaqədar istintaq olunan cinayət işləri və digər əhəmiyyətli məlumatların ictimaiyyətə açıqlanması məqsədilə ölkəmizdə fəaliyyət göstərən xarici ölkələrin diplomatik nümayəndələrinin, eləcə də yerli və beynəlxalq kütləvi informasiya vasitələrinin əməkdaşlarının iştirakı ilə brifinqlər keçirilmiş, düşmən hücumu nəticəsində ziyan görmüş vətəndaşların qanunla qorunan hüquq və mənafelərinin bərpası istiqamətində bir sıra işlər görülmüşdür.

Hazırda vətənimizin düşmən tapdağı altında olan ərazilərinin işğaldan azad olunması ilə ölkəmizin qarşısında yeni inkişaf mərhələsi açılmışdır. Xarici və yerli investorların həmin ərazilərdə infrastruktur layihələrinin icrasına cəlb edilməsi, bu torpaqlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi kimi dövlətin yeni strateji prioritetləri bölgənin gələcək inkişafının carçısıdır. Şəffaflıq və korrupsiyadan azad mühit kimi komponentlər isə məhz sözügedən inkişaf amilinin başlıca şərtlərindən olmaqla, bu şərəfli missiya korrupsiyaya qarşı mübarizədə iştirak edən hər bir qurum kimi prokurorluq orqanlarının daha da səmərəli və intensiv fəaliyyətini zəruri edir.

Dövlət başçısının uzaqgörən siyasətinin məntiqi nəticəsi kimi Azərbaycan Prokurorluğu sahib olduğu peşəkar kadr potensialı, əlverişli struktur tərkibi və müasir maddi-texniki bazası ilə hər sahədə olduğu kimi, transmilli cinayətkarlığın ən təhlükəli təzahürlərindən olan korrupsiya hallarına qarşı da daha çevik və səmərəli reaksiya verən bir dövlət təsisatı kimi tam formalaşmışdır.

Ötən dövr ərzində korrupsiya müxtəlif cəmiyyətlərin inkişaf dinamikası ilə paralel şəkildə mürəkkəbləşməklə, hazırda daha təhlükəli və transmilli xarakter almış, nəticədə isə inkişafın qarşısında duran gözəgörünməz və məkrli düşmənə çevrilmişdir. Müasir dövrdə korrupsiya mütəşəkkil cinayətkarlığın ən təhlükəli formalarından biri olmaqla, ona qarşı mübarizənin yalnız milli səviyyədə deyil, beynəlxalq səviyyədə də aparılmasını tələb edir.

Məhz bu nöqteyi-nəzərdən ölkəmiz öz müstəqilliyinə qovuşduqdan sonra hüquqi dövlət quruculuğu yolunda qüvvədə olan qanunvericiliyi beynəlxalq norma və standartlara uyğunlaşdırmaq, daxili qanunvericiliyi təkmilləşdirmək məqsədilə korrupsiyaya qarşı mübarizə ilə bağlı bir sıra beynəlxalq və regional sənədlərə, o cümlədən Avropa Şurasının "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" və "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında", Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" konvensiyalarına və sair mühüm əhəmiyyət daşıyan təşəbbüslərə qoşulmuşdur. Korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş beynəlxalq konvensiyaların mühüm əhəmiyyət daşımasının səbəbi bu sahədə beynəlxalq əməkdaşlığın sıx və səmərəli şəkildə qurulması, korrupsiyaya qarşı mübarizədə daha effektiv nəzəri və praktiki məlumatların, həmçinin təcrübənin mübadiləsi, bunun nəticəsində dövlətlərdə qanunvericilik və institusional bazaların daha da təkmilləşdirilməsi, hüquqi islahatların həyata keçirilməsi, o cümlədən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üçün dövlətlərin üzərinə müvafiq öhdəliklərin qoyulmasıdır.



Dövlət idarəetməsində şəffaflığın təmin edilməsi və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması istiqamətində həyata keçirilmiş ən mühüm tədbirlərdən biri kimi 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun nəzdində "ASAN xidmət" mərkəzlərinin yaradılması xüsusi qeyd edilməlidir. Bu sistem vətəndaşlara bürokratik əngəllərdən azad, tam şəffaf və mədəni xidmətin təmin olunması istiqamətində atılmış ən uğurlu model olmaqla beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, "ASAN xidmət" 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının dövlət xidmətlərinin göstərilməsi sahəsində "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında ən yüksək - birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunmuşdur.

Korrupsiyaya qarşı mübarizənin dövlətlərin qarşılıqlı əməkdaşlığı kontekstində aparılması məqsədilə qəbul edilmiş ən mühüm beynəlxalq hüquqi qüvvəyə malik hüquqi aktlardan biri Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasıdır. Bu universal akt 31 oktyabr 2003-cü il tarixdə qəbul olunmaqla, 14 dekabr 2005-ci il tarixdə qüvvəyə minmişdir. Konvensiyanın müddəalarının icrasına nəzarət edilməsi üçün xüsusi mexanizm təsis edilmiş və bu nəzarəti BMT-nin "Narkotik və Cinayətkarlıq İdarəsi" ("United Nations Office on Drugs and Crime" - UNODC) həyata keçirir. Qeyd etmək lazımdır ki, korrupsiyaya qarşı mübarizəyə göstərilən əhəmiyyətin təzahürü kimi, ölkəmiz də həmin konvensiyaya qoşulmaqla, korrupsiyaya qarşı mübarizə sahəsində qətiyyətini bir daha nümayiş etdirmişdir.

BMT-nin Korrupsiya əleyhinə Konvensiyasını ratifikasiya etmiş dövlətlər kimi, ölkəmizdə də beynəlxalq standartlara cavab verən qanunvericilik və institusional baza formalaşdırılmış, korrupsiyaya qarşı mübarizə sahəsində genişmiqyaslı islahatlar həyata keçirilmişdir. Bunlara misal olaraq, 13 yanvar 2004-cü il tarixdə Azərbaycan Respublikasının "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunu qəbul edilmiş, həmin qanunun 4.2-ci maddəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqan olan Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası yaradılmışdır. Bununla yanaşı, həmin konvensiyanın 36-cı maddəsinin, yəni iştirakçı dövlətin öz hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq, korrupsiya ilə mübarizə aparmaq üçün ixtisaslaşmış orqanların mövcudluğunun təmin edilməsi barədə öhdəliyinin icrasını təmin etmək məqsədilə ölkə Prezidentinin 3 mart 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi (2014-cü ildən etibarən baş idarə) təsis edilmişdir.

Xüsusi qeyd edilməlidir ki, 2011-ci ildə baş idarəyə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyası ilə yanaşı, Müstəqil Dövlətlər Birliyi məkanında, habelə Azərbaycan Prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti də verilmiş, bu təcrübə Baş İdarənin fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artırmışdır. Təsadüfi deyildir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Antikorrupsiya şəbəkəsi tərəfindən bu qurum beynəlxalq aləmdə səmərəli antikorrupsiya fəaliyyətinin nümunəvi modeli kimi tövsiyə edilmişdir.

2014-cü ildə baş idarə prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmiş, baş idarənin əsasnaməsində yeni dəyişikliklər edilərək strukturu daha da təkmilləşdirilmiş, əməkdaşların ştat vahidi əhəmiyyətli dərəcədə artırılmışdır.

Dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla, fəaliyyətə başladığı ilk dövrlərdən baş idarə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici tərəfdaşlarla qarşılıqlı əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim xüsusi əhəmiyyət vermişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin nəticəsi kimi, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya şəbəkəsi də daxil olmaqla, əksər beynəlxalq qurumların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər yüksək dəyərləndirilmişdir. Bu müsbət tendensiya hər il yenilənən beynəlxalq reytinqlərdə də öz əksini tapır. Belə ki, Azərbaycan Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və "Korrupsiya ilə əlaqədar mülki məsuliyyəti haqqında" konvensiyalarını 11 fevral 2004-cü il tarixdə ratifikasiya etmiş və onlar qüvvəyə mindiyi 1 iyun 2004-cü il tarixdən GRECO-ya üzv olmuşdur. Qeyd olunmalıdır ki, ölkəmiz müxtəlif dövr ərzində GRECO tərəfindən həyata keçirilən korrupsiyaya qarşı beynəlxalq konvensiyaların hüquq sisteminə implementasiyasının dörd dəyərləndirmə mərhələsini uğurla tamamlamışdır.

Bundan başqa, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq ölkəmizin prokurorluq orqanları OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya şəbəkəsi ilə səmərəli əməkdaşlığını davam etdirir. Bu əməkdaşlıq ölkəmizin 2003-cü ildə İstanbul Fəaliyyət Planını qəbul edərək təşkilat çərçivəsində iqtisadiyyatları keçid mərhələsində olan ölkələrin antikorrupsiya şəbəkəsinə bölgənin digər ölkələri ilə birgə qoşulması ilə başlamışdır. İstanbul Fəaliyyət Planı şəbəkəyə üzv ölkələrdə mərhələli şəkildə antikorrupsiya islahatlarının həyata keçirilməsini və nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları bu illər ərzində BMT, OECD və GRECO tərəfindən təşkil olunan qiymətləndirmə missiyalarına cəlb olunaraq müxtəlif ölkələrin antikorrupsiya siyasəti üzrə monitorinqində ekspert qismində iştirak etmişlər.

Bununla yanaşı, Avropa Şurasının Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL), Beynəlxalq Antikorrupsiya Qurumları Assosiasiyasının (IAACA), Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) proqramı çərçivəsində, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı (GUAM) və digər təşkilatlarla qurulmuş səmərəli əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilmişdir.

Bundan başqa, Azərbaycan Respublikasının prokurorluq orqanları dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən artıq dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir. BPA-nın formalaşmasına əsaslı təkan verən amillər sırasında transmilli cinayətkarlığın ciddi şəkildə güclənməsi, xüsusən də narkotiklərin qanunsuz dövriyyəsinin intensivləşməsi, çirkli pulların yuyulması və saxtakarlıq kimi cinayət növlərinin ildən-ilə artması olmuşdur. Assosiasiyanın meydana gəlməsi həmçinin prokurorlar arasında daha sürətli və səmərəli əlaqələrin qurulması tələbi, o cümlədən qarşılıqlı hüquqi yardım, aktivlərin izlənməsi və digər sahələrdə işgüzar əlaqələrin qurulmasında vasitəçilik edəcək bir quruma olan böyük ehtiyacla səciyyələnmişdir.

Azərbaycan Respublikası BPA ilə onun fəaliyyətə başladığı gündən sıx işgüzar münasibətlər yaratmış, assosiasiyanın korrupsiyaya qarşı mübarizə problemləri üzrə fikir və təcrübənin mübadiləsi üçün təşkil etdiyi konfrans və forumlarda Azərbaycandan olan üzvləri mütəmadi iştirak etməklə, onun işinə töhfə vermişlər. Hazırda prokurorluq orqanlarının, o cümlədən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının müəyyən qismi bu təşkilatın üzvüdür.

Bundan başqa, həmin təşkilatla əməkdaşlığın təzahürü kimi BPA-nın Korrupsiyaya qarşı Mübarizə aparan Prokurorların Şəbəkəsinin (NACP) alt domeninin fəaliyyətinin təmin edilməsinin Azərbaycan Prokurorluğuna həvalə olunmasını da misal kimi göstərmək olar.

Qeyd edilməlidir ki, antikorrupsiya tədbirlərinin beynəlxalq standartlar çərçivəsində həyata keçirilməsi məqsədilə prokurorluq əməkdaşlarının bu sahədə bilik səviyyəsinin yüksəldilməsi də daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə prokurorluq əməkdaşları beynəlxalq təlim və treninqlərə cəlb olunur, eyni zamanda magistr proqramları vasitəsilə öz təhsillərini davam etdirirlər. Bu sahədə xüsusilə Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə əməkdaşlığa önəm verilir. Belə ki, prokurorluq işçiləri IACA tərəfindən təşkil olunan görüş və tədbirlərdə, o cümlədən yay məktəblərində iştirak etmiş, həmin akademiyanın magistr proqramı üzrə təhsil almışlar. Hazırda da IACA-nın magistratura proqramında baş idarənin bir neçə əməkdaşı təhsillərini davam etdirirlər.

Baş idarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik olan ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində zəruri tədbirlər görülmüşdür. Baş idarə İran İslam Respublikasının Baş Təftiş Təşkilatı, Malayziya, Monqolustan və Litvanın antikorrupsiya qurumları, Argentina Respublikasının Buenos-Ayres Muxtar Vilayətinin prokurorluğu və Tunis Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Xidməti ilə korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair anlaşma memorandumları imzalamışdır. Hazırda digər ölkələrin müvafiq sahədə ixtisaslaşmış qurumları ilə əməkdaşlıq sazişlərinin bağlanması istiqamətində müzakirələr aparılır.

Bundan əlavə, ötən illər ərzində Türkiyə, Rusiya, Özbəkistan, Qırğızıstan, Səudiyyə Ərəbistanı, Bolqarıstan, Belarus, Türkiyə, Çin, Litva, Qırğızıstan və digər ölkələrin antikorrupsiya və əlaqədar hüquq mühafizə orqanlarının nümayəndə heyətləri təcrübə mübadiləsi məqsədilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuş, habelə qurum bir çox beynəlxalq və regional tədbirlərə evsahibliyi etmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi bundan sonra da mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizənin həm milli, həm də beynəlxalq səviyyədə gücləndirilməsi istiqamətində səylərini ən yüksək səviyyədə davam etdirəcəkdir.

***Nazim RƏCƏBOV,***
***Azərbaycan Respublikası baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri***

# GDU tələbə yataqxana kompleksinin açılışı olmuşdur

Gəncə Dövlət Universitetində (GDU) tələbə yataqxana kompleksinin əsaslı təmirdən sonra açılışı olmuşdur. 1967-ci ildə istifadəyə verilən yataqxana kompleksində Birinci Qarabağ müharibəsi zamanı öz ata-baba yurdlarından didərgin düşmüş Kəlbəcər rayonundan olan 150 ailə məskunlaşmışdı. 2014-cü ildə onlar Gəncə şəhəri ətrafında salınan qəsəbəyə köçürüldükdən sonra 2018-ci ildə yataqxana kompleksinin təmir edilməsi üçün vəsait ayrılmışdır.





Yataqxana kompleksində 744 tələbə qala bilər. 4 qonaq otağının da olduğu kompleks yüksəksürətli internet, fasiləsiz elektrik enerjisi və daimi isti-soyuq su ilə təmin olunmuşdur. Kompleksdə 3 yaşayış binası, 400 tələbənin eyni anda istifadə edə biləcəyi yeməkxana, basketbol meydançası, fəvvarə, yaşıl zona və istirahət zonası mövcuddur. Hər bir mərtəbədə yaşayış otaqları, mətbəx, sanitar qovşaq, istirahət otağı, akt zalı var. Binaların birinci mərtəbəsində camaşırxana fəaliyyət göstərir. 95 təhlükəsizlik kamerasının quraşdırıldığı yataqxanada universitetin əsas kitabxanası da yerləşir.

Açılışda iştirak edən təhsil naziri Emin Əmrullayev GDU-nun rektoru Yusif Yusibovla birlikdə kompleksdə yaradılan şəraitlə tanış olmuşlar. Sonra təhsil naziri bu il yüksək balla universitetə qəbul olunan tələbələrlə görüşmüşdür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhidin adını daşıyan məktəb əsaslı təmir olunub

Mingəçevirdə əsaslı təmirdən çıxan növbəti təhsil ocağı şəhid Vaqif Ağakişiyevin adını daşıyan 12 nömrəli tam orta məktəbdir. Vaqif Ağakişiyev Birinci Qarabağ müharibəsində həlak olmuşdur.



Açılış mərasimində şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov, Təhsil Nazirliyinin sektor müdiri Fuad Qarayev, nazirliyin 9 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi Elçin Həsənzadə, şəhər təhsil şöbəsinin müdiri əvəzi Zamik Cəbiyev, şəhər ictimaiyyətinin nümayəndələri, məktəbin pedaqoji kollektivi, şagirdlər iştirak etmişlər.

450 şagirdlik məktəbdə 23 sinif otağı var. 1969-cu ildən bəri ilk dəfə əsaslı təmir olunan məktəb müasir avadanlıqlarla təchiz edilmişdir. Məktəbdə laboratoriyalar, akt və idman zalları, yeməkxana, kitabxana və müxtəlif fənn kabinələri, eləcə də şəhidin adını daşıyan guşə var.

***Tofiq ƏSGƏROV,***
***Mingəçevir şəhər sakini***

# Yevlaxlı şəhidlər barədə kitabın təqdimatı olmuşdur

Yevlaxda "Zəfər fədailəri: Yevlax şəhidləri" kitabının təqdimat mərasimi keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət etmişlər.






Heydər Əliyev Sarayında davam edən tədbirdə çıxış edən Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev qeyd etmişdir ki, 44 günlük Vətən savaşında Yevlaxın 65 qəhrəman övladı şəhid olmuşdur: "Amma onların qanı yerdə qalmadı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusu düşmənin belini qırdı, başını əzdi. Sizin, bizim, bütün xalqın intiqamı alındı. Şəhidlərimizin ruhu bu gün çox rahatdır. Bu isə xalqımız üçün ən böyük təsəllidir. Bu yaxınlarda başlamasının bir illiyini qeyd edəcəyimiz Vətən savaşına Yevlaxın yüzlərlə qəhrəman övladı yollanmışdı. Onlar Qarabağ uğrunda Suqovuşandan Şuşayadək Zəfər yolu keçdilər. Bütün əsgərlərimizin döyüş yolu bir qəhrəmanlıq məktəbi, vətənpərvərlik örnəyidir. Bizim borcumuz isə bu qəhrəmanlıqları yazılı tarixə çevirmək, onu yeni nəslə çatdırmaqdır. Bu gün təqdimatına yığışdığımız "Zəfər fədailəri: Yevlax şəhidləri" kitabı da məhz bu amalın, bu niyyətin nəticəsində meydana çıxmışdır".

Tədbirdə Vətən müharibəsini əks etdirən video-çarx nümayiş etdirilmişdir. Sonra Yevlaxın ilk şəhidi Kazımov Emin Fərman oğlunun atası Fərman Kazımov, Milli Məclisin deputatı İlham Məmmədov və Vətən müharibəsi qazisi Orxan Hüseynov çıxış etmişlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Tovuzda 27 Sentyabr - Anım Günü ərəfəsində şəhid ailələri ziyarət edilir

Tovuzda 27 Sentyabr - Anım Günü ərəfəsində rayon rəhbərliyi şəhid ailələrini ziyarət edir. Bir neçə gün əvvəl başlanan ziyarətdə şəhid ailələrinin qayğı və problemləri öyrənilir, onların həlli istiqamətində tədbirlər görülür.



Qısa vaxt ərzində Tovuz şəhərində Cəlilov Elcan Famil oğlunun, Nağıyev Pərviz Güloğlan oğlunun, Qovlar şəhərində Həsənov Xətai Xaliq oğlunun, Abbasov Zülfüqar Bayram oğlunun, Vəliyev Nurlan Habil oğlunun, Abulbəyli kəndində Mahmudov Emin Pünhan oğlunun, Dönük Qırıqlı kəndində Sultanov Nurlan Yaşar oğlunun, Düz Qırıqlı kəndində Əliyev Asim Nuru oğlunun, Salmanov Sahil Vüqar oğlunun, Bədirov Nəcməddin Nürəddin oğlunun, Əyyublu kəndində Qurbanov Vahid Elşad oğlunun, Mirzəyev Ceyhun Zirəddin oğlunun, Aran Yanıqlı kəndində Heydərov Vasif Nazim oğlunun ailələri ziyarət edilmiş, onların arzu və istəkləri dinlənilmişdir.

Keçirilən görüşlərdən sonra şəhidlərin məzarları da ziyarət olunur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Güc simvolu



## Strateji əhəmiyyətə malik hərbi təlimlər Müzəffər Azərbaycan Ordusunun döyüş qabiliyyətini daha da artırır

Vətən müharibəsindəki şanlı qələbənin ildönümü ərəfəsindəyik. Bir il keçməsinə baxmayaraq, hələ də ordumuzun yeni müharibə modeli, yəni aparılan uğurlu əməliyyatlar və savaşın nəticəsi bu gün də dünyanın hərbi analitikləri tərəfindən müzakirə olunmaqdadır.

Ümumiyyətlə, 44 günlük Vətən müharibəsi bir çox reallıqları dünyaya nümayiş etdirdi. Yəni bu savaş Cənubi Qafqazla bağlı reallıqlara yenidən və həm də əyani şəkildə aydınlıq gətirdi. Müharibə və onun nəticəsi dünyaya praktik şəkildə nümayiş etdirdi ki, Azərbaycan yerləşdiyi regionun siyasi, iqtisadi və hərbi gücüdür. Bu Qələbə Azərbaycanın Cənubi Qafqazda lider və aparıcı dövlət kimi statusunu daha da yüksəltdi. Bütövlükdə isə ərazi bütövlüyünü bərpa etməklə respublikamız beynəlxalq miqyasda mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

Azərbaycanın 44 günlük müharibədə qalib gəlməsinin əsas səbəbi Ermənistandan fərqli olaraq hər bir sahədə inkişafı, irəli getməsi, dövrün tələblərinə uyğun yüksəlişi və apardığı hazırlıq işləri idi. Ən böyük hazırlıq isə təbii ki, orduda həyata keçirilmişdi.

Bu gün texniki inkişafın elə bir mərhələsinə qədəm qoymuşuq ki, hətta 5 il əvvəl meydana çıxan yeniliklər belə günümüzlə ayaqlaşmır. Bu baxımdan Ali Baş Komandan İlham Əliyev ordumuzun arsenalının modern hərbi texnologiyalarla zənginləşdirilməsi, müasir döyüş imkanlarına malik hərbi gücə çevrilməsi istiqamətində davamlı iş aparır.

Təsadüfi deyil ki, hazırda Azərbaycanın silahlanmasında yer alan müasir döyüş vasitələri inkişaf etmiş dövlətlərin belə arsenalında yoxdur. Üstəlik, İlham Əliyev Azərbaycanın hərbi-sənaye kompleksini də formalaşdırıb və artıq neçə illərdir ki, Silahlı Qüvvələrimizin müəyyən hərbi təyinatlı məhsullarla təchizatında xarici asılılıq aradan qaldırılıb.

Lakin Silahlı Qüvvələrdə qarşıya qoyulan əsas məsələlərdən biri olan döyüş qabiliyyətinin daim yüksəldilməsi üçün təkcə yeni hərbi texnikaların alınması kifayət etmir. Eyni zamanda mütəmadi olaraq keçirilən hərbi təlimlərdə müasir döyüş vərdişlərinin artırılması zərurəti yaranır. Bu məsələ Ali Baş Komandanın xüsusilə nəzarətindədir və təsdiq edilən plana əsasən il ərzində bir neçə dəfə hərbi təlimlər keçirilir. Bununla yanaşı, ordumuz dost və qardaş ölkələrin hərbi birləşmələri ilə müştərək təlimlərə qatılır.

2013-cü ildən başlayaraq Azərbaycan və Türkiyə silahlı qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi hər iki ölkənin ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələr arasında təcrübə mübadiləsinin həyata keçirilməsi müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətinə nail olunması baxımından böyük əhəmiyyət kəsb edir. Ona görə də iki ölkənin ordularının iştirakı ilə keçirilən və bütün qoşun növlərini əhatə edən təlimlərin sayı ildən-ilə artmaqdadır.

Elə bu ilin sentyabrında keçirilən təlimlərə nəzər yetirsək, görərik ki, ordumuzun tarixində nə qədər yeniliklər baş verib.

Öncə Azərbaycan və Türkiyənin xüsusi təyinatlıları işğaldan azad edilmiş Laçın rayonunda hərbi təlimlər keçirdi. Paralel olaraq iki qardaş ölkənin şahinləri Konyada "TurAz Şahini - 2021" təlimlərində təcrübələrini daha da zənginləşdirdilər.

Ardınca isə Bakıda ilk dəfə olaraq Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə "Üç qardaş - 2021" beynəlxalq təlimi keçirildi.

Birgə təlimin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı dost və tərəfdaş ölkələrin xüsusi təyinatlı bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, sülh və müharibə dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılması idi. Bu təlimlər hər üç ölkənin hərbi qulluqçularının peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verdi.

"Üç qardaş-2021" beynəlxalq təlimi ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsinə xidmət edərək, terrorla mübarizə üçün yeni üsulların öyrənilməsinə və qarşılıqlı təcrübə mübadiləsi yolu ilə bacarıqları inkişaf etdirməyə imkan yaratdı.

Bir sözlə, təlim göstərdi ki, müasir texnologiyalardan, yeni döyüş taktikasından istifadə edən xüsusi təyinatlılarımızın bacarığı daha da artıb və peşəkarlıq səviyyəsi xeyli yüksəlib. Təlimlər qoşunlarımızın imkan və qabiliyyətlərinin inkişaf etdirilməsinə böyük töhfə verdi. Bu təlim Silahlı Qüvvələrimizin qarşıda duran istənilən vəzifəni birgə icra etməyə hazır və qadir olduğunu bir daha nümayiş etdirdi.

Dağlıq Qarabağ problemi bitsə də, düşmənə etibar etmək olmaz. Bu baxımdan qoşunların 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunun birgə əməliyyat-taktiki təlimlərinin keçirilməsi zəruridir. Çünki döyüş qabiliyyətinin gücləndirilməsi, şəxsi heyətin döyüş vərdişlərinin yüksəldilməsi hər zaman prioritet olaraq qalır.

Ali Baş Komandanın orduya göstərdiyi diqqət və qayğı, döyüş hazırlığı, maddi-texniki bazanın daim yenilənməsi hər zaman gündəmdədir. Çünki Vətən müharibəsi göstərdi ki, güclü ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, ordu ilə xalqın vəhdətinin təmin edilməsi möhtəşəm qələbənin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə hazırkı dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirib.



Prezident İlham Əliyev hərbi quruculuq sahəsində islahatları davam etdirməkdədir. İşğaldan azad edilmiş torpaqlarımızda yeni hərbi birləşmələr yaradılır və ən müasir hərbi texnikalarla təchiz edilir. Bütün hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi işlər görülür.

Ümumiyyətlə, Azərbaycanda ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Həm ordunun arsenalına modern silahlar daxil edilir, həm qoşun növlərinin döyüş qabiliyyəti artırılır, həm də hərbçilərin sosial şəraiti yüksəldilir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Qarabağ Dirçəliş Fondu arasında anlaşma memorandumu imzalanıb



Sentyabrın 23-də Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Qarabağ Dirçəliş Fondu arasında işğaldan azad edilən ərazilərdə ətraf mühitə vurulan zərərlərin aradan qaldırılması və bərpa işlərinin görülməsi sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Memorandumu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev imzalayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qarabağ Dirçəliş Fondunun mətbuat xidmətləri birgə məlumat yayıblar.

Əməkdaşlıq memorandumunun məqsədi işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi ilə regionda dayanıqlı məskunlaşmaya və inkişafa töhfə vermək, əlverişli həyat şəraitinin yaradılmasına dair tədbirləri ölkə daxilində və xaricində təşviq etməkdir.

Razılaşmaya əsasən bölgədəki ekosistemlərin və infrastrukturun, hidrometeoroloji müşahidə sistemlərinin bərpası, ətraf mühitin monitorinqi stansiyalarının yaradılması, yeni yaşıllıqların salınması, meşəbərpa tədbirləri, su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə su mənbələrinin qiymətləndirilməsi, balıq növlərinin yetişdirilərək su hövzələrinə buraxılması kimi layihələrin icrası həyata keçiriləcək.

Bu əməkdaşlıq eyni zamanda işğal dövründə Ermənistan tərəfindən törədilmiş ekoloji terror, təbiət obyektlərinə dəymiş ziyan, ərazilərin, o cümlədən su hövzələrinin Ermənistan ərazisindən transsərhəd çirklənməsinin davam etdirilməsi kimi faktların beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə xarici mətbuatda işıqlandırılması və "Yaşıl" iqtisadiyyatın dəstəklənməsi kimi layihələri də əhatə edəcək.

Tərəflər digər dövlət, özəl təşkilatları, eyni zamanda diaspora və cəmiyyətin müxtəlif nümayəndələrini də bu memoranduma qoşularaq qeyd olunan istiqamətlər üzrə potensial əməkdaşlığa, öz fəaliyyət istiqamətlərinə uyğun olaraq işğaldan azad edilən ərazilərdə ətraf mühitə vurulan zərərlərin aradan qaldırılmasına, ekoloji tarazlığın bərpası və yenidənqurma işlərinin təşkilinə, sosial-iqtisadi rifahın yaxşılaşdırılması məsələsinə dəstək olmağa dəvət edirlər.

## Azərbaycan mövqeyini yaxşılaşdırmaqda davam edir

*Əvvəli 1-ci səh.*

Agentlik onu qeyd etmişdir ki, koronavirus pandemiyasının səbəb olduğu iqtisadi ləngimələrə baxmayaraq, Azərbaycan "BB" kateqoriyalı ölkələr sırasında ən güclülərdən biridir. 2021-2024-cü illər üçün ÜDM-in təxminən 74 faizi səviyyəsində proqnozlaşdırılan iri likvid dövlət aktivləri bundan sonra Azərbaycanı iqtisadi və maliyyə çalxalanmalarından qoruyacaq.

Bundan başqa, keçən il Fitch Ratings agentliyi Azərbaycanın Uzunmüddətli xarici valyuta emitenti reytinqini "BB+" səviyyəsində təsdiq etmişdir. Reytinqə əsasən, Azərbaycanın xarici balans hesabatının, həmçinin borclarının az olması ölkənin iqtisadi-maliyyə sistemini gücləndirən amildir.

Bu baxımdan "Moody`s" reytinq agentliyinin Azərbaycanda neft hasilatı ilə bağlı 2021-ci il üçün verdiyi proqnazlar da maraqlı idi. "Moody`s"un ekspertləri 2020-ci ilin iqtisadi tənəzzülündən sonra 2021-ci ildə neft bazarının aktivliyinin bərpa olunacağını düşünürdülər. "Moody's" həmçinin Azərbaycanın maliyyə sektorundakı islahatlarını da müsbət qiymətləndirmişdir.

Bu gün də dünyanın müxtəlif sorğu agentlikləri Azərbaycanın qazandığı uğurları mütəmadi olaraq reytinq sorğularında qeyd edir, bu barədə hesabatlarını yayırlar. Son belə hesabat "Qlobal İnnovasiya" indeksində Azərbaycanın mövqeyini 2 pillə yaxşılaşdırması ilə bağlıdır. 132 ölkəni əhatə edən bu məlumat Kornell Universitetinin (ABŞ), INSEAD Biznes məktəbinin (Fransa) və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə "Qlobal İnnovasiya İndeksi-2021" (QİI-2021) nəşrində dərc olunmuşdur. Məlumat üçün bildirək ki, ilk dəfə 2007-ci ildə nəşr olunan hesabat professor Sumitra Dutta tərəfindən yaradılmışdır. Qlobal İnnovasiya İndeksi (QİI) ölkələrin innovasiya qabiliyyətinə və uğuruna görə illik reytinq sıralamasıdır. QİI hesabatı korporasiyalar və dövlət rəsmiləri tərəfindən ölkələri innovasiya səviyyələrinə görə müqayisə etmək üçün istifadə olunur.

QİI-2021 reytinqi innovasiya fəaliyyətinin potensialı, məhsuldarlığı və çərçivə şərtlərini əhatə edən 81 indikator əsasında tərtib olunur. Onun dərc olunmasında əsas məqsəd innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmlərinin qiymətləndirilməsi imkanlarının yaradılmasıdır.

Builki hesabatda, qeyd etdiyimiz kimi, Azərbaycan reytinqini ötən ilə nisbətən yaxşılaşdıraraq 80-ci yerə yüksəlmişdir. Ölkəmizin bu subindeks üzrə ən yaxşı nəticəsi (36-cı yer) "Daxili bazarın inkişafı" blokunda əldə edilmişdir. Azərbaycan bu blokda "Kredit" istiqamətində 33-cü yeri tutmuş, həmin istiqamətə daxil olan "Kredit almağın asanlığı" göstəricisi üzrə bütün reytinq ölkələri arasında 1-ci yerdə, "Mikromaliyyələşdirmə kreditləri" göstəricisi üzrə isə 13-cü yerdə qərarlaşmışdır. "İnstitutlar" blokunun "Biznes-mühit" istiqaməti üzrə isə Azərbaycan 33-cü, "Biznesin başlanmasının asanlığı" göstəricisi üzrə 9-cu yerdə olmuşdur.

"İnnovasiya nəticələri" subindeksi üzrə "Yaradıcı fəaliyyətin nəticələri" bloku üzrə Azərbaycan Gürcüstan (74), Belarusiya (93), Tacikistan (107), Qazaxıstan (110), Özbəkistan (113) və Qırğızıstanı (120) qabaqlayaraq reytinqdə 67-ci yeri tutmuşdur. Bu subindeksdə əsasən əqli mülkiyyət obyektləri ilə müəyyənləşən "Qeyri-maddi aktivlər"in mühüm inteqral göstəricisi diqqəti cəlb edir. Həmin göstərici üzrə Azərbaycan 2020-ci ildəki nəticəni (56-cı yer) 2 pillə yaxşılaşdıraraq 54-cü yerə yüksəlmişdir. Bu inteqral göstəricisində kifayət qədər yüksək yerləri əqli fəaliyyət göstəriciləri təşkil etmişdir. Məsələn, "Sənaye nümunələri və ticarət markaları üzrə" Azərbaycan reytinqdə 18-ci pillədən 11-ci pilləyə qalxmışdır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Hərbi qulluqçular arasında keçirilən növbəti səmti müəyyənetmə yarışları başa çatıb

Azərbaycan Ordusunda hərbi qulluqçular arasında keçirilən növbəti səmti müəyyənetmə yarışları yekunlaşıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarışlarda səkkiz komandanın heyətində 44 hərbi qulluqçu mübarizə aparıb. İştirakçılar təyin olunmuş məsafəyə qaçış edərək xəritə üzərində göstərilən hədəflərin aşkarlanması tapşırıqlarını yerinə yetiriblər. Yarışın qaydalarına əsasən, kişi hərbi qulluqçular 9,3 kilometr məsafədə 13 nəzarət nöqtəsini, qadın hərbi qulluqçular isə 6 kilometr məsafədə 10 nəzarət nöqtəsini müəyyənləşdiriblər.

Yekun nəticələrə görə qalib gələn Quru Qoşunlarının yığma komandası yarışın kubokunu qazanıb. İkinci və üçüncü yerlərə isə müvafiq olaraq Hərbi Hava Qüvvələrinin "N" saylı hərbi hissəsinin və Hərbi Polisin yığma komandaları layiq görülüblər.

Yarışın qalibləri kubok, fəxri fərman və medallarla təltif olunublar.



## Vətən müharibəsində yaralanmış 2 min nəfərədək qaziyə əlillik və müvafiq sosial ödənişlər təyin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertlərdən ibarət işçi qrupu Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işlərini davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Vətən müharibəsinin 2 min nəfərədək iştirakçısına ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı həyata keçirilib. Əlillik təyinatından dərhal sonra proaktiv qaydada onlara müvafiq sosial ödənişlər təyin edilib.

Qazilərin əlilliyinin qiymətləndirilməsi Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların ilk mərhələdə əyani müayinəsi keçirilməklə və müvafiq sənədləşdirmə işləri görülməklə aparılır. Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə təqdim olunur. Həmin şəhadətnamə və tibb müəssisələri tərəfindən elektron sistemə daxil edilmiş göndəriş (forma 88) əsasında yekun mərhələ olaraq əlilliyin qiymətləndirilməsi aparılır.

## Yuxarı ətrafları amputasiya olunmuş qazilərin yaxın günlərdə yüksək texnologiyalı protezlərlə təminatına başlanılacaq

Yuxarı ətrafları amputasiya olunmuş qazilərin yaxın günlərdə yüksək texnologiyalı protezlərlə təminatına başlanılacaq.

Bu məqsədlə İslandiyanın ÖSSUR şirkətinin istehsalı olan son nəsil protezlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə gətirilib.

AZƏRTAC xəbər verir ki, ilkin mərhələdə mərkəzdə Vətən müharibəsində yuxarı ətraflarını itirmiş 10, ümumilikdə isə 29 qazi yüksək texnologiyalı protezlərlə təmin ediləcək. Bunun üçün ÖSSUR şirkətinin Rusiya nümayəndəliyinin mütəxəssisləri ilə birgə həmin qazilərdən müvafiq ölçülər götürülüb.

Protez-ortopedik sənayesi sahəsində ən qabaqcıl texnologiyaya malik olan şirkət yuxarı ətrafları amputasiya olunanlar üçün yüksək funksionallıq və proqram təminatı ilə fərqlənən ən müasir bionik protezlərin istehsalını həyata keçirir. ÖSSUR Touch Bionics protezlərinin xüsusi proqram təminatı istifadəçinin sosial həyata daha tez və rahat inteqrasiyasına imkan yaradır. ÖSSUR i-Limb Ultra bioelektrik əl darağının 18 fərqli tutma variantı mövcuddur. Ən müasir və yüksək texnologiya əsasında hazırlanmış protezlərin özəlliyi itirilmiş bədən əzaları funksiyalarını 70-80 faiz təmin etməyə imkan verməsidir. Komplektə istifadəçinin seçiminə uyğun fərqli rəng və ölçülərə malik 6 silikon əlcək də daxildir.

Bundan əvvəl isə qazilərin 2020-ci ilin dekabrından yüksək texnologiyalı elektron protezlərlə təminatına başlanılıb. Ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə aşağı ətraflarını itirmiş 142 hərbçi son nəsil protezlə təmin edilib.

# Yoluxma və ölüm sayı azalsa da, statistik göstərici qənaətbəxş deyil



*Əvvəli 1-ci səh.*

COVID-19, onunla bağlı təşvişlərin, narahatlıqların sonu gəlməsə də, ümid doğuran məsələlər də olur. Bunlardan biri də dünəndən etibarən Azərbaycanda yeni tədris ilinin başlamasıdır. Belə ki, artıq sentyabrın 22-dən ölkəmizdə bütün məktəblərdə I-IV siniflərdə dərslər bərpa olunub.

Sentyabrın 29-dan isə V-XI siniflərdə əyani təhsilin başlanması nəzərdə tutulub. Ali məktəblər, kolleclər və digər təhsil müəssisələri həmin gündən açılacaq.

Qeyd edək ki, yeni tədris ilində 158608 şagird birinci sinfə gedir. Respublikanın ümumtəhsil müəssisələrində 2021-2022-ci tədris ilində ümumilikdə 1589829 şagirdin təhsil alacağı bildirilib. Həm orta ümumtəhsil, həm də ali və orta-ixtisas tədris müəssisələrində çalışan təhsil işçilərinin çoxluğunu da nəzərə alsaq, aydın olur ki, koronavirusa qarşı tədbirləri daha da gücləndirmək labüddür.

## Qaydalara dəyişiklik edildi

Baş nazir Əli Əsədov "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nda dəyişiklik edib. Qərarda qeyd olunub ki, təhsil müəssisələrinin işçilərinin ən azı 80 faizinin COVID-19 pasportunun (COVID-19-a qarşı peyvənd sertifikatı və ya COVID-19-a qarşı immunitet sertifikatı) olması tələb edilir. Bildirilir ki, bu tələb təhsil alanların sayı 200 nəfərdən az olan təhsil müəssisələrinə şamil edilmir.

Bundan əlavə, qərara əsasən "ali və orta-ixtisas təhsil müəssisələrində təhsil alan yaşı 18-dən yuxarı olan bütün şəxslərin COVID-19 pasportu (COVID-19-a qarşı peyvənd sertifikatı və ya COVD-19-a qarşı immunitet sertifikatı) olmalıdır".

Qərarda bildirilib ki, ali və orta-ixtisas təhsil müəssisələrində sinif otaqlarından (auditoriyalardan) eyni vaxtda mövcud yerlərin 70 faizindən çox olmamaqla sanitariya və gigiyena qaydalarına əməl olunmaqla istifadə edilir. Koronavirusla bağlı daha bir məhdudlaşdırılma isə müəllimlərlə bağlıdır. Belə ki, "müəllimlərin (professor-müəllim heyətinin) eyni zamanda müəllim otağına (kafedraya) toplaşması məhdudlaşdırılır.

Həmçinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nda edilən dəyişiklikdə yeməkxanalara (bufetlərə) dair tələblər müəyyənləşdirilib.

Baş nazir Əli Əsədovun imzaladığı dəyişiklikdə qeyd olunan tələblərə görə, yeməkxana (bufet) girişlərinə spirt tərkibli əl üçün dezinfeksiya vasitəsi qoyulur, təhsil alanların yeməkdən əvvəl və sonra əllərini bol su və sabunla yuması üçün şərait yaradılır. Eyni zamanda yeməkxana əməkdaşının şəxsi gigiyena qaydalarına əməl etməsi, əlcək və tibbi maska taxması, yeməkxanada stollar arasında məsafənin 2 metrdən az, oturacaqların ara məsafəsinin isə 1 metrdən az olmaması, təhsil alanların yeməkxanadan (bufetdən) növbəli (qrafik üzrə) istifadəsinin təmin edilməsi və digər vacib məsələlər dəyişiklikdə əksini tapıb.

## Koronavirusla bağlı tədbirləri daha da gücləndirmək labüddür

Yeni tədris ilinin builki sevinci də qeyri-müəyyənlikdən və narahat düşüncələrdən xali deyil. Əyani təhsilin davam etməsini hər kəs arzulasa da, vəziyyətin necə olacağı bilinmir. Çünki ötən ilin acı təcrübəsi var. Ənənəvi təhsilin davam etməsini arzulamaqla və buna ümid etməklə isə, təəssüf ki, məsələ bitmir. Koronavirus öz meydanını genişləndirmək, daha çox insanı öz əsirinə çevirmək, sağlamlığını əlindən almaq, həyatına son qoymaq üçün pusqudadır. Gözəgörünməz düşmənə bu fürsəti verməmək isə hər birimizdən asılıdır. Qlobal pandemiyanın ilk günlərindən söylədiyimiz kimi: "Biz birlikdə güclüyük". Birlikdə mübarizə aparmasaq, hər birimiz həm özümüz, həm də ətrafımızdakı insanların həyatını, sağlamlığını düşünüb, güclü olmasaq, "düşmən"lə mübarizədə uduzacağıq. Nəticəsi isə hamımız üçün ağır olacaq.

Dünyada ən gözəl səs uşaq gülüşüdür. Tədris müəssisələrimizin, təlim-tərbiyə ocaqlarımızın yenidən sükuta qərq olmaması naminə koronavirusla mübarizənin ciddiliyini yaddan çıxarmamalıyıq.

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**







# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

# Beynəlxalq aləm

## Rusiyanın qəzaya uğramış An-26 təyyarəsindən sağ çıxan olmamışdır

Rusiyanın Xabarovsk diyarında An-26 təyyarəsinin qəzaya uğraması nəticəsində 6 nəfər həlak olub. Bu barədə TASS informasiya agentliyi xəbər verib. Məlumata görə, qəza yerində həlak olanların qalıqları aşkarlanıb. Sağ qalan yoxdur. Axtarış işləri davam edir.

Ötən gün RF FHN-də təsdiq etmişlər ki, göyərtəsində 6 nəfər olan An-26 təyyarəsi radarlardan itmişdir.

## Mərakeşdə koalisiya hökuməti yaradılacaq

Mərakeşdə "Müstəqil milli birlik "(RNI) Partiyası "Nəciblik və müasirlik" və "İstiqlal" partiyaları ilə birgə koalisiya hökumətinin formalaşdırılmasına dair razılıq əldə olunduğunu bildirib.

Bu barədə "Müstəqil Milli Birlik" Partiyasının lideri Əziz Əhənnuş "Nəciblik və müasirlik" və "İstiqlal" partiyalarının rəhbərləri Əbdüllətif Vəhbi və Nizar Bərəkə ilə üçtərəfli görüşdən sonra məlumat verib. Onun dediyinə görə, üç partiyanın liderləri hökumətin formalaşdırılması istiqamətində danışıqlara başlayıblar. RNI-nın lideri bildirib ki, partiyalar koalisiyanın yol xəritəsi olacaq hökumət proqramının reallaşdırılması üzərində birgə çalışacaqlar.

"Koalisiyanın məsuliyyəti böyükdür, çünki vətəndaşlar iqtisadiyyata, sosial hüquqlara və azadlıqlara böyük ümidlər bəsləyirlər", - deyə "Nəciblik və müasirlik" Partiyasının lideri Əbdüllətif Vəhbi bildirib. O qeyd edib ki, daha yaxşı gələcək üçün bütün sahələrdə işləyən güclü və ahəngdar hökumət lazımdır.

Xatırladaq ki, sentyabrın 8-də Mərakeşdə keçirilmiş parlament seçkilərinin qalibi "Müstəqil milli birlik" Partiyası olub.

## M.Baçelet: "Myanmada hərbi çevriliş baş verdiyi gündən 1100-dən artıq insan qətlə yetirilib"



BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Mişel Baçelet Myanmada fevralın 1-də hərbi xunta hakimiyyəti ələ keçirdikdən sonra ölkədə 1100-dən çox insanın qətlə yetirildiyini bildirib.

BMT-nin Cenevrədəki İnsan Hüquqları Şurasının 48-ci iclasında çıxış edən Baçelet Myanmanın kollapsla qarşılaşdığını vurğulayıb. Onun sözlərinə görə, Myanmada hərbi çevrilişin nəticələri ölkənin həyatına mənfi təsir göstərməyə davam edir, burada insan hüquqları ilə bağlı vəziyyət ciddi şəkildə pisləşib. "Münaqişələr, yoxsulluq və pandemiyanın nəticələri sürətlə artır. Ölkə təzyiq, zorakılıq və iqtisadi kollaps burulğanı ilə üzləşib", - deyə o, bildirib.

Baçelet onu da qeyd edib ki, cəmiyyətin böyük hissəsi hərbi xuntaya müqavimət göstərir.

Myanmada hərbi çevriliş baş verdiyi gündən 1100-dən çox vətəndaş qətlə yetirilib, 8 mindən çox insan, o cümlədən uşaqlar saxlanılıb. Hazırda 4 700-ə yaxın insan həbsdədir.

# Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir

Azərbaycanda sentyabrın 24-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 17-19°, gündüz 23-25° isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 24-də Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 23-27° isti, dağlarda gecə 6-11°, gündüz 12-17° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 25-30° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 20-25° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 15-20° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 21-26° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv və güclü olacağı, dolu düşəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 18-22° isti, dağlarda gecə 5-10°, gündüz 12-17° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 23-27° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı ehtimal edilir. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 17-19°, gündüz 20-25° isti, dağlarda gecə 12-14°, gündüz 17-19° isti olacağı gözlənilir.


*Təkrar*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 65 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Anar Rəhimov, telefon: (+99412) 310-07-70 (daxili 2022), e-mail: arahimov@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 65 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması.

İştirak haqqı: LOT-1. 500.00 (beş yüz) manat;

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;
2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;
4) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);
6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);
7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
8) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;
9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;
10) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;
11) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;
12) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
14) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15.10.2021-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25.10.2021-ci il saat 17:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 26.10.2021-ci il saat 15:00-da Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

***Tender komissiyası***


# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü, "91-lər"in nümayəndəsi

**KƏRİM HACIXAN OĞLU KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Laçın rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən İlqar İlyasova anası

**MÜLAYİM İLYASOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Hacı Mirhəşim Seyid və qardaşları Miryusif, Mirhafiz və Mirsəlim ailə dostları Arif, İsa, Natiq, Yasin və Ramil Məmmədovlara qardaşları

**QADİR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər, Şamil, Faiq, Fuad, Rüfət və Emin Əliyevlər ailələri ilə birlikdə Akif Rəfiyevə və ailəsinə həyat yoldaşı

**ƏSMAYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rauf Orucov Fikrət Nəbiyevə qardaşı

**HİKMƏT NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparat rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**QADİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5014
Sifariş 1742
Qiyməti 40 qəpik